

# İşgəncənin Qarşısının Alınması





Milli İnsan Hüquqları Təsisatlarının Fəaliyyətinə dair Bələdçi

# Qeyd

Bu Məlumat Kitabçasında istifadə olunan məfhumlar və materialların təqdimatı BMT Katibliyinin hər hansı ölkənin, ərazinin, şəhərin və ya regionun, yaxud onların hər birinin hakimiyyət orqanlarının hüquqi statusuna və ya sərhədlərinin müəyyən olunmasına dair fikirlərini əks etdirmir.

HR/PUB/10/1

*İşgəncənin Qarşısının Alınması: Milli İnsan Hüquqları Təsisatlarının Fəaliyyətinə dair Bələdçi*

© Copyright APF, APT and OHCHR May 2010

APF, APT və İHAKİ hazırkı nəşrə istinad verilməsi və buradan çıxarışları əks etdirən nəşrin surətinin aşağıdakı ünvanlara göndərilməsi şərti ilə bu nəşrdən çıxarışların sərbəst surətdə verilməsinə icazə verirlər:

Asia Pacific Forum of National Human Rights Institutions
GPO Box 5218
Sydney NSW 2001
Australia

Association for the Prevention of Torture
Route de Ferney 10
PO Box 2267
CH-1211 Geneva 2
Switzerland

National Institutions and Regional Mechanisms Section
Office of the United Nations High Commissioner for Human Rights
Palais des Nations
CH-1211 Geneva 10
Switzerland

# Müəlliflər barədə məlumat

Üz səhifəsindəki fotoşəkillər: Munir Zok – “Tellərin yaddaşı” *(The memories of the wires)* (mərkəzdə), APE / Michael Power – “həbsdə olan insan” (man in detention) (solda) və “saxlanma mərkəzinin əməkdaşları” (detention centre officials) (aşağıda).

# Mündəricat


Təşəkkürlər ii

Ön söz iii

İxtisarlar siyahısı iv

İstifadəçilər üçün təqdimat v

Müqəddimə: İşgəncənin qarşısının alınması anlayışı və onun tətbiqi 1

I hissə İşgəncənin qadağan edilməsi: Hüquqi fon 11

1-ci Fəsil: İşgəncə nədir? 12

2-ci Fəsil: İşgəncə və digər formada pis rəftara dair beynəlxalq və regional sənədlər 16

II hissə İşgəncənin qarşısının alınması: MİHT-lərin fəaliyyəti 25

I Bölmə Səmərəli qanunvericiliyin təşviqi 27

3-cü Fəsil: Hüquqi və prosessual islahatların təşviqi 28

II Bölmə Qanunvericilik müddəalarının həyata keçirilməsinə yardım 35

4-cü Fəsil: İşgəncə barədə şikayətlərin araşdırılması 36

5-ci Fəsil: Müsahibə 43

6-cı Fəsil: Vəzifəli şəxslər üçün təlim 55

III Bölmə Nəzarət mexanizmi qismində fəaliyyət 61

7-ci Fəsil: Beynəlxalq mexanizmlər ilə əməkdaşlıq 62

8-ci Fəsil: Saxlanma yerlərinin monitorinqi 82

9-cu Fəsil: İctimai məlumatlanmanın təşviqi 93

IV Bölmə Kəsişən fəaliyyətlər 97

10-cu Fəsil: MİHT-lər və İşgəncə əleyhinə Konvensiyanın Fakültativ Protokolu 98

11-ci Fəsil: İctimai araşdırmalar 106

Xülasə 111

Diskdə mövcud olan məlumatlar 114

# Təşəkkürlər

“İşgəncənin Qarşısının Alınması: Milli İnsan Hüquqları Təsisatlarının Fəaliyyətinə dair Bələdçi” – Birləşmiş Millətlər Təşkilatının İnsan hüquqları üzrə Ali Komissarı İdarəsinin (İHAKİ), İşgəncənin Qarşısının alınması üzrə Assosiasiyanın (APT) və Milli İnsan Hüquqları Təsisatlarının Asiya – Sakit okean Bölgəsinin Forumunun (APF) birgə nəşridir.

Bələdçi Barbara Bernath tərəfindən yazılmışdır. Burada APT-İHAKİ-nin “Dəyişmə üçün Aktorlar” Layihəsinin (2005-ci il) bir hissəsi kimi hazırlanmış “İşgəncənin Qarşısının Alınması” adlı diskdə əks etdirilmiş məlumatdan istifadə edilmişdir. İHAKİ, APT və APF Francesca Albanese, Citlalin Castañeda, Kieren Fitzpatrick, Kate Fox, James Iliffe, Ahmed Motala, Suraina Pasha, Chris Sidoti, Safir Syed və Lisa Thompsonu töhfələrinə görə təşəkkür etmək istərdilər.

# Ön söz

Hazırkı Bələdçi Birləşmiş Millətlər Təşkilatının İnsan Hüquqları üzrə Ali Komissarının İdarəsi (İHAKİ), İşgəncənin Qarşısının alınması üzrə Assosiasiya (APT) və Milli İnsan Hüquqları Təsisatlarının Asiya – Sakit okean Bölgəsinin Forumu (APF) arasında əməkdaşlığın nəticəsidir. O, əvvəlki birgə təlim səyləri, yəni APT-İHAKİ-nin "Dəyişmə üçün Aktorlar" Layihəsi (2005-2007-ci illər) və APT-APF-in Asiya – Sakit okean bölgəsində milli insan hüquqları təsisatları (MİHT-lər) üçün təlim proqramları zamanı əldə edilmiş nailiyyətlərə və təcrübəyə əsaslanır.

1948-ci ildə İnsan Hüquqları haqqında Ümumdünya Bəyannaməsinin qəbul edilməsindən sonra, işgəncənin qadağan edilməsi ümumiyyətlə "heç kəsin işgəncəyə və ya qəddar, qeyri-insani, yaxid ləyaqəti alçaldan rəftar və cəzaya məruz qalmaması" (5-ci maddə) kimi qəbul edilmişdir. İşgəncənin qadağan edilməsi həmçinin işgəncənin qarşısını almaq öhdəliyi ilə tamamlanır, hər ikisi isə BMT-nin İşgəncələrə qarşı Konvensiyada və onun Fakültativ Protokolunda beynəlxalq səviyyədə təsbit olunur. Bundan əlavə, sonuncu, saxlanma yerlərinə müstəqil beynəlxalq və yerli orqanlar tərəfindən müntəzəm başçəkmələr sistemi təsis edilməklə üzv-dövlətlərə bu öhdəliyi yerinə yetirməkdə kömək edir.

Həqiqətən, Fakültativ Protokolda MİHT-lərin mümkün güclü monitorinq və icra rolu nəzərdə tutulur. Baş katib həmçinin üzv-dövlətləri dəvət etmişdir ki, MİHT-lərin bu rolunun səmərəli surətdə yerinə yetirməsi üçün onların səlahiyyətlərini və imkanlarını artırsınlar.

İnsan hüquqlarının təşviqi və müdafiəsi üzrə milli sistemlərin "təməl daşı" olan səlahiyyətli, etibarlı və düzgün təsis edilmiş MİHT-lər işgəncənin qarşısının alınması ilə fəal məşğul olmaq və bu sahədə milli aktyorlarla əməkdaşlıq etmək üçün bütün imkanlara malikdir. Bu Bələdçi işgəncənin qarşısının alınması məqsədilə konkret tədbirlərdə onlara kömək etmək üçün praktiki alət kimi hazırlanmışdır. Burada hər cür faydalı məlumat, o cümlədən dəyərli təcrübələr əks etdirilir. Bu Bələdçi bir küll təşkil edən, həmçinin müvafiq audio-vizual məlumatları əhatə edən CD-paketinin bir hissəsidir.

Ümid edirəm ki, bu nəşr insan hüquqları və insan ləyaqətinin bu cür dəhşətli pozuntularının qarşısının alınması üsullarının daha yaxşı anlanılmasına töhfə verəcək, habelə bu sahədə MİHT-lərin imkanlarını və rolunu artıracaqdır.



**Navanethem Pillay**

**Birləşmiş Millətlər Təşkilatının İnsan Hüquqları üzrə Ali Komissarı**

# İxtisarlar

**ACJ** Milli İnsan Hüquqları Təsisatlarının Asiya – Sakit okean Bölgəsinin Forumunun Hüquqşünasların Məşvərətçi Şurası

**APF** Milli İnsan Hüquqları Təsisatlarının Asiya – Sakit okean Bölgəsinin Forumu

**APT** İşgəncənin Qarşısının alınması üzrə Assosiasiya

**ICC** İnsan Hüquqlarının Təşviqi və Müdafiəsi üzrə Milli Təsisatların Beynəlxalq Əlaqələndirmə Komitəsi

**QHT** Qeyri-hökumət təşkilatı

**MİHT** Milli insan hüquqları təsisatı

**MPM** İşgəncə əleyhinə Konvensiyanın Fakültativ Protokoluna əsasən Milli preventiv mexanizm

**İHAKİ** Birləşmiş Millətlər Təşkilatının İnsan Hüquqları üzrə Ali Komissarının İdarəsi

**UDİ** Universal dövri icmal

# İstifadəçilər üçün təqdimat

Birləşmiş Millətlər Təşkilatının İnsan Hüquqları üzrə Ali Komissarının İdarəsi (İHAKİ), İşgəncənin Qarşısının alınması üzrə Assosiasiya (APT) və Milli İnsan Hüquqları Təsisatlarının Asiya – Sakit okean Bölgəsinin Forumu (APF) "İşgəncənin Qarşısının Alınması: Milli İnsan Hüquqları Təsisatlarının Fəaliyyətinə dair Bələdçi"ni təqdim etməkdən məmnundurlar.

Bu Bələdçinin məqsədi milli insan hüquqları təsisatlarının (MİHT-lər), yəni insan hüquqları komissiyalarının və ombudsmanların, xüsusilə Paris Prinsiplərinə tam uyğun olan MİHT-lərin işgəncənin qarşısının alınması sahəsində işinin dəstəklənməsi və gücləndirilməsidir.[1]

Paris Prinsiplərinə uyğun olmayan MİHT-lərin işgəncənin qarşısının alınmasında mühüm rol oynaya bilsə də, tam uyğun olan MİHT-lər həmin preventiv işlə qanuni və etibarlı və bununla da, daha səmərəli surətdə məşğul ola bilərlər.[2]

## İZAHAT

MİHT-lər güclü milli insan hüquqlarının müdafiəsi sistemlərinin həyati əhəmiyyətli hissəsi olaraq beynəlxalq və yerli insan hüquqları sistemlərinin əlaqələndirilməsində əsas rol oynayırlar. Onların mandatına görə, işgəncənin qarşısının alınması üçün milli səviyyədə bütün müvafiq aktorlarla işləyə, habelə beynəlxalq mexanizmlərlə qarşılıqlı əlaqədə ola bilərlər.

MİHT-lərin onlardan bütün şəxslərin insan hüquqlarının müdafiəsini tələb edən geniş mandata malik olmasına baxmayaraq, MİHT-lərin işgəncənin qarşısının alınmasına xüsusi diqqət yetirməsinin lehinə güclü arqumentlər vardır.

İşgəncə şəxsin insan hüquqlarının ən dəhşətli pozulması növlərindən biridir. Bu, şəxsin ləyaqətinin kökünə hücumdur. Eyni zamanda, beynəlxalq hüquqa əsasən işgəncənin mütləq qadağan olunmasına baxmayaraq, o, dünyanın hər bir yerində geniş şəkildə tətbiq olunmaqdadır. Buna görə də, işgəncəyə qarşı mübarizə üçün bir çox aktorların, o cümlədən MİHT-lərin iştirakı tələb olunur.

Preventiv tədbirlərə diqqətin yönəlməsi MİHT-lər üçün həm çətinlikləri, həm də imkanları təşkil edir. MİHT-lərin əksəriyyəti araşdırma və ya digər preventiv tədbirləri həyata keçirən orqan deyil, əsasən onlara şəxslər və təşkilatlar tərəfindən verilmiş şikayətlərə cavab verən "reaksiya verən" orqan kimi fəaliyyət göstərir. Bu reaksiya diqqətindən kənarlaşma maraqlı olsa da, qeyd edilməlidir ki, MİHT-lərin preventiv tədbirləri həyata keçirmək, o cümlədən hüquqi islahatları təşviq etmək, təlim proqramları həyata keçirmək və ictimai məlumatlanmanı artırmaq mandatı vardır. Bununla da, işgəncənin qarşısının alınmasına daha böyük diqqətin yetirilməsi nəticəsində MİHT-lərin öz mandatının müxtəlif aspektləri arasında tarazlığı müəyyən etmək və preventiv tədbirlərlə daha strateji yolla məşğul olmaq imkanı yaradılır.

Saxlanma yerlərinin monitorinqi MİHT-lərin öz ənənəvi müdafiə mandatı ilə preventiv yanaşma arasında tarazlığı əldə etməkdə əsas çətinlik çəkə bildiyi sahədir. Bu, "İşgəncənin və ya digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və cəzalara qarşı Konvensiyanın" Fakültativ Protokoluna əsasən milli preventiv mexanizm (MPM) qismində müəyyən edilmiş MİHT-lər üçün xüsusilə maraqlı ola bilər. Aydındır ki, Fakültativ Protokola əsasən müəyyən edilmiş müntəzəm, qabaqcadan bildirilməyən, preventiv başçəkmələr sistemi MİHT-lərin fərdi şikayətləri rəsmiləşdirmək və cavablandırmaq üçün həyata keçirilən başçəkmələrdən öz məqsədi, hüdudları və metodologiyası ilə fərqlənir. Eyni zamanda Fakültativ Protokolda bu çağırışı cavablandırmağa kömək edə biləcək müəyyən təminatlar və səlahiyyətlər nəzərdə tutulur.

---

1 İnsan hüquqlarının təşviqi və müdafiəsi üzrə milli təsisatların statusuna aid Prinsiplər (Baş Məclisin 48/134 saylı 1993-cü il 20 dekabr tarixli qətnaməsi).

2 Bu gün dünyada 100-dən çox MİHT mövcuddur ki, onlardan 65-i Paris Prinsiplərinə uyğun olan kimi akkreditə olunmuşdur. Uyğunluq İHAKİ-nin himayədarlığı altında İnsan Hüquqlarının Təşviqi və Müdafiəsi üzrə Milli Təsisatların Beynəlxalq Əlaqələndirmə Komitəsi (ICC) tərəfindən aparılan hərtərəfli akkreditasiya prosesi yolu ilə qiymətləndirilir. Paris Prinsiplərinə uyğun olan sayılan MİHT-lər "A" statusu ilə akkreditə olunur və onların qanuniliyinin və səmərəliliyinin etiraf olduğuna görə beynəlxalq səviyyədə xüsusi yerə malikdirlər.

2008-ci ilin oktyabrında “İnsan hüquqlarının təşviqi və müdafiəsi üzrə milli təsisatların Doqquzuncu Beynəlxalq Konfransı zamanı qəbul edilmiş Nayrobi Bəyannaməsində MİHT-lərin ədalət mühakiməsinin həyata keçirilməsində rolu məsələsi əks etdirilir və işgəncənin qarşısının alınmasında onların iştirak etməsi dəstəklənilir. Həqiqətən, Nayrobi Bəyannaməsinin bir sıra müddəaları işgəncənin qarşısının alınmasına bilavasitə bağlıdır: hüquq-mühafizə və penitensiar orqanlarının əməkdaşları üçün təlimlərin keçirilməsi; polis bölmələrinə və saxlanma yerlərinə qabaqcadan bildirilməyən başçəkmələr; standartların və prosedurların nəzərdən keçirilməsi; və İşgəncə əleyhinə Konvensiyanın və onun Fakültativ Protokolunun ratifikasiyasının təşviqi. ICC iclasları zamanı Nayrobi Bəyannaməsinin həyata keçirilməsinin illik qaydada nəzərdən keçirilməsi ilə MİHT-lər üçün işgəncənin qarşısının alınmasında daha fəal iştirak etmək üçün əlavə motivasiya yaradılır.

## MƏSƏLƏNİN TARİXİ

Bu Dərsliyin nəşri iki əhəmiyyətli tədbirin birbaşa davamıdır. Birincisi, MİHT-lərin münaqişələrin qarşısının alınmasında və işgəncənin qarşısının alınmasında imkanlarını gücləndirmək məqsədini daşımış APT-İHAKİ-nin birgə “Dəyişmə üçün Aktorlar” Layihəsi (2005-2007-ci illər) olmuşdur. Layihənin işgəncənin qarşısının alınması ilə bağlı bütün mərhələlərində APT İHAKİ-nin tərəfdaşı olmuşdur. İşgəncənin qarşısının alınması üzrə təlim kursu üç komponentdən ibarət olmuşdur: CD-diskdə yerləşən tədris materialları ilə səkkiz həftəlik məsafədə təhsil kursu; iştirakçıları əyani müzakirələr və praktiki təlim üçün birləşdirmiş regional seminarlar; və iştirakçılar tərəfindən öz MİHT-ləri üçün hazırlanmış “İşgəncənin qarşısının alınması üzrə Fəaliyyət Planları”. Kurslar dünyanın dörd bölgəsindən hər birində keçirilmiş və 52 MİHT-dən 90 iştirakçını əhatə etmişlər.[3]

İkinci tədbir isə 2005-ci ildə APT-nin ekspert dəstəyi ilə APE-nin Hüquqşünasların Məşvərətçi Şurası tərəfindən işgəncə anlayışının nəzərdən keçirilməsi olmuşdur. Bu vaxtdan başlayaraq, APE və APT Asiya – Sakit okean bölgəsində MİHT-lər üçün milli təlim proqramlarının hazırlanması və təqdim edilməsi üzərində birgə çalışıblar. Təlimin əsas diqqəti BMT-nin İşgəncələrə qarşı Konvensiyanın və onun Fakültativ Protokolunun anlamasına, həmçinin APE-nin üzv-təsisatları və İşgəncə əleyhinə Konvensiyanın və onun Fakültativ Protokolunun həyata keçirilməsində digər əsas subyektlər üçün texniki məsləhət və təlimin təmin edilməsinə yönəldilir. MİHT-lərin MPM qismində potensial rolunun müzakirəsinə təlimdə xüsusi diqqət yetirilmişdir.[4]

Hər iki təlim proqramı “şərtsiz müvəffəqiyyət” kimi qiymətləndirilmiş[5], APT, APE və İHAKİ isə birgə qərara almışlar ki, iki kursun məzmunu birləşdirilməli, dəyişdirilməli və kitabça şəklində dərslikdə və aidiyyəti CD-diskdə MİHT-lər üçün hazırlanmalıdır.



Şəkil: Malayziya Milli İnsan Hüquqları Komissiyası

[3] Asiya – Sakit okean bölgəsindən 15 MİHT (Avstraliya, Əfqanıstan, Fələstin, Fici, Filippin, Hindistan, İndoneziya, İran İslam Respublikası, Koreya Respublikası, Malayziya, Maldiv adaları, Monqolustan, Şri-Lanka, Tailand və Yeni Zelandiya), Avropadan 14 MİHT (Almaniya, Bolqarıstan, Danimarka, Finlandiya, Gürcüstan, İrlandiya, İspaniya Kosovo, Latviya, Makedoniya Keçmiş Yuqoslav Respublikası, Polşa, Portuqaliya, Şimali İrlandiya və Yunanıstan), Fransa dilli ölkələrdən 13 MİHT (Burkina Faso, Haiti, Kanada (Kvebek), Kamerun, Konqo Demokratik Respublikası, Mali, Mərakeş, Mavriki, Niger, Ruanda, Seneqal və Toqo) və Latın Amerikasından 10 MİHT (Boliviya Çoxmillətli Dövləti, Ekvador, El Salvador, Qvatemala, Kolumbiya, Kostarika, Meksika, Panama, Paraqvay və Peru).

[4] APE və APT-in birgə layihələrində İndoneziya, Maldiv Adaları, Nepal, Filippin, Tailand və Timor-Leste MİHT-lərinin nümayəndələri iştirak etmişlər.

[5] Evaluation of the Strengthening of National Human Rights Institutions (OHCHR) project, Executive Summary (2008-ci il mart).

## MƏQSƏDLƏR VƏ MƏZMUN

Bu Bələdçi MİHT-lərin öz ölkələrində işgəncənin qarşısını almaq məqsədilə konkret tədbirlərin planlaşdırılmasında və həyata keçirilməsində dəstəklənməsi üçün praktiki alət kimi hazırlanmışdır. Bələdçinin başlanğıcında işgəncənin qarşısının alınması konsepsiyası izah olunur və işgəncənin qarşısının alınmasına dair qlobal, kompleks strategiyaya daxil olmasının vacibliyi vurğulanır.

Bələdçi iki əsas hissədən ibarətdir. Birinci bölmədə işgəncənin qarşısının alınmasının hüquqi konteksti, o cümlədən işgəncənin anlayışı və işgəncəni qadağan edən müvafiq beynəlxalq və regional sənədlər əks etdirilir. İkinci bölmədə işgəncənin qarşısını almaq üçün MİHT-lərin həyata keçirə bildiyi praktiki addımlar göstərilir. Müxtəlif MİHT-lərin yaxşı təcrübələrin nümunələri daxil edilmişdir ki, işgəncənin qarşısının alınmasına dair strategiyaların səmərəli surətdə tətbiqi yolları göstərilsin. Hər bir fəsildə əsas suallar, MİHT-lərin iştirakının hüquqi əsasları, əsas məsələlərin müzakirəsi və əlavə ədəbiyyatın siyahısı verilir.

Əlavə olunan CD-diskdə müxtəlif faydalı sənədlər və istinad materialları vardır. Burada həmçinin MİHT-lər nümayəndələrinin işgəncənin qarşısını almaq məqsədilə aparılan işlərini təsvir edən müsahibələr, habelə aparıcı beynəlxalq ekspertlərlə müsahibələr vardır. Diskdə həmçinin saxlanma yerinə başçəkməyə başlamaq və azadlıqdan məhrum edilmiş şəxslərlə müsahibənin aparılması üçün qısa təlim materialları verilir

# Müqəddimə:

# İşgəncənin qarşısının alınması anlayışı və onun tətbiqi

**ƏSAS SUALLAR**

- **Dövlətlərin işgəncənin qarşısını almaq öhdəliyi varmı?**
- **İşgəncənin qarşısının alınması necə müəyyən olunur?**
- **İşgəncənin qarşısının səmərəli alınması üzrə strategiyanın əsas elementləri hansılardır?**
- **MİHT-lər işgəncənin qarşısının alınmasına hansı töhfə verə bilərlər?**

## 1. GİRİŞ: QARŞINI ALMAQ VƏZİFƏSİ

BMT-nin Baş Məclisinin 1948-ci ildə qəbul etdiyi İnsan hüquqları haqqında Ümumdünya Bəyannaməsinin 5-ci maddəsində bildirilir ki, "Heç kəs işgəncəyə, yaxud qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəzaya məruz qala bilməz".

İşgəncənin və digər formada pis rəftarın qadağan edilməsi insan hüquqlarının beynəlxalq müdafiə sistemində xüsusi statusa malikdir. O, bir sıra beynəlxalq və regional müqavilələrə daxil olunub, habelə bütün dövlətlər üçün məcburi olan beynəlxalq adət hüququnun bir hissəsini təşkil edir.

İşgəncənin qadağan olunması mütləqdir və heç bir halda əsaslandırıla bilməz. Bu qadağa məhdudlaşdırıla bilməz, yəni heç bir halda, o cümlədən müharibə şəraitində, daxili siyasi qeyri-sabitlik və ya başqa fövqəladə vəziyyət zamanı işgəncənin qadağan olunmasının dövlət tərəfindən müvəqqəti ləğv olunmasına yol verilmir. Bundan əlavə, işgəncənin qadağan olunması beynəlxalq hüququn imperativ norması, yəni *jus cogens* kimi qəbul edilmişdir. Başqa sözlərlə, o, digər müqavilənin və ya adət hüququnun ziddiyyətli müddəasından üstündür.

İşgəncənin qadağan olunmasının xüsusi əhəmiyyəti nəzərə alınaraq, dövlətlərin insan hüquqlarının **hörmət, müdafiə və əməl edilməsi** üzrə ənənəvi öhdəlikləri **işgəncənin** və digər formada pis rəftarın **qarşısının alınması üzrə** əlavə **öhdəliklə** tamamlanır.[6] Dövlətlərdən **onun baş verməsinin qarşısını almaq üçün müsbət tədbirlərin görülməsi** tələb olunur.[7] "İşgəncəyə gəldikdə, dövlətlər tərəfindən milli implementasiya tədbirlərinin təxirə salmadan həyata keçirilməsinə başlamaq tələbi bu təcrübənin qadağan edilməsi üzrə beynəlxalq öhdəliyin ayrılmaz hissəsidir."[8]

---

6 İnsan Hüquqları Komitəsinin "Pakta tərəfdar çıxmış dövlətlər üzərində olan ümumi hüquqi öhdəlik haqqında" 31 saylı ümumi şərhində bildirilir ki, "2-ci maddədə tələb olunur ki, iştirakçı dövlətlər öz hüquqi öhdəliklərini yerinə yetirmək üçün qanunvericilik, məhkəmə, inzibati, təhsil və digər müvafiq tədbirləri həyata keçirməlidirlər" (7-ci paraqraf). Daha sonra qeyd olunur ki, "ümumiyyətlə, 2-ci maddənin tərkib hissəsi olan, Paktın pozulmasının yenidən baş verməsinin qarşısının alınması üçün tədbirlərin görülməsinə dair öhdəliyin olmaması Paktın məqsədlərinə xələl gətirəcəkdir" (17-ci paraqraf).

7 İnsan hüquqları üzrə Amerikalararası Məhkəmənin *Velasquez Rodriguez* işi üzrə qərarda etiraf olunmuşdur ki, bu öhdəliyin nəticəsi kimi, "dövlətlər Konvensiyada təsbit edilmiş hər bir hüququn pozulmasının qarşısını almalı, bu halları araşdırmalı və cəzalandırmalıdırlar" (166-cı praqraf); *Velasquez Rodriguez* işi (29 iyul 1988-ci il); Inter-Am.Ct.H.R. (Ser.C.) No. 4 (1988). İnsan Hüquqları Komitəsinin 20 saylı ümumi şərhində "qeyd edilir ki, 7-ci maddənin müddəalarının tətbiqi üçün yalnız belə rəftarın qadağan edilməsi və ya cəzalandırılması, yaxud onun cinayət kimi sayılması kifayət deyil. İştirakçı dövlətlər Komitəyə işgəncə hallarının qarşısını almaq və cəzalandırmaq məqsədilə görülmüş qanunvericilik, inzibati, məhkəmə və digər tədbirlər barədə məlumat verməlidirlər (…)" (8-ci paraqraf).

8 Keçmiş Yuqoslaviya üçün Beynəlxalq Cinayət Tribunalı; *Prosecutor* v. *Furundzija* (10 dekabr 1998-ci il); İş № IT-95-17/I-T (149-cu paraqraf).

BMT-nin İşgəncə əleyhinə Konvensiyada həmçinin iştirakçı dövlətlərin işgəncənin və digər formada pis rəftarın qarşısının alınmasına dair dəqiq öhdəliyi nəzərdə tutulur. 2.1-ci maddəyə müvafiq olaraq "hər bir iştirakçı dövlət öz yurisdiksiyasında olan hər hansı ərazidə işgəncə hərəkətlərinin qarşısını almaq üçün təsirli qanunvericilik, inzibati, məhkəmə və digər tədbirləri həyata keçirir", 16-cı maddədə isə tələb olunur ki, "Hər bir iştirakçı dövlət (...) digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və cəza növlərinin (...) qarşısını almağı öhdəsinə götürür". Onun Fakültativ Protokolunda iştirakçı dövlətlərə müstəqil beynəlxalq və milli orqanlar tərəfindən saxlanma yerlərinə müntəzəm başçəkmələr sistemi yaradılmaqla həmin öhdəlikləri yerinə yetirməyə yardım edən mexanizm müəyyən olunur.

Dövlətlərin işgəncənin qarşısını almaq vəzifəsinin olmasına baxmayaraq, o, heç də həmişə təcrübədə tətbiq olunmur, işgəncənin qarşısının alınması anlayışı ilə bağlı isə ümumiyyətlə başa düşmənin çatışmazlığı vardır. Bu müqəddimədə işgəncənin qarşısının alınmasının anlayışı müəyyən olunur, işgəncənin qarşısının alınmasına dair kompleks strategiyanın çərçivələri verilir və MİHT-lərin oynaya bildiyi preventiv rolu təsvir edilir.

## 2. "İŞGƏNCƏNİN QARŞISININ ALINMASI" NƏ DEMƏKDİR?

### 2.1. "İşgəncənin qarşısının alınmasının" anlayışı

"Chambers" lüğətinə görə, "qarşını almaq" "(kimisə nə isə etməkdən, yaxud nəyinsə baş verməkdən) dayandırmaq, mane olmaq, hadisəni dayandırmaq, qeyri-mümkün etmək, döndərmək" deməkdir.

Səhiyyədə, qarşını alma – xəstəliklərlə mübarizədə epidemiyaların əmələ gəlməsinin, inkişafının və yayılmasının qarşısının alınmasına yönəlmiş ümumi strategiyadır.

Cinayətkarlığın qarşısının alınması "cinayətlərin baş verməsinin təhlükəsinin, habelə onların şəxslərə və cəmiyyətə potensial zərərli təsirinin azaldılmasına yönəlmiş, onların çoxsaylı səbəblərinə təsir etmək üçün müdaxilə etmək məqsədilə strategiya və tədbirlərdən ibarətdir."[9]



Şəkil: Beynəlxalq Qırmızı Xaç Komitəsi / Fred Clarke

[9] BMT-nin "Cinayətkarlığın qarşısının alınmasına dair Rəhbər Prinsipləri", İqtisadi və Sosial Şuranın 2002/13 saylı qətnaməsi, 3-cü paraqraf. Paraqrafda həmçinin deyilir ki, "Qanunların və cəzaların icrasının preventiv funksiyalar daşımağına baxmayaraq, Rəhbər Prinsiplərinin hüdudlarından kənara çıxır."

Bu anlayışlar faydalı olsa da, işgəncə və digər formada pis rəftara münasibətdə qarşını alma anlayışını müəyyən etmək üçün kifayət deyil.

İşgəncəyə qarşı mübarizə sahəsində bir çox tədbirlər "qarşını alma" kimi təsvir edildiyi zaman, işgəncənin qarşısının alınmasının iki ayrı-ayrı formasının fərqləndirilməsi vacibdir. Bu fərq tədbirin həyata keçirilməsinin vaxtına və istifadə olunan yanaşmaya əsasən aparılır.

**Birbaşa qarşını almanın** (zəiflətmə) məqsədi – risk amilləri azaltmaqla və mümkün səbəbləri aradan qaldırmaqla **işgəncənin baş verməsinin qarşısının alınmasıdır**. Belə müdaxilə işgəncənin baş verməsindən əvvəl həyata keçirilir və təlim, tədris və saxlanma yerlərinin müntəzəm monitorinqi vasitəsilə işgəncəyə və pis rəftara gətirib çıxara bilən ilk səbəbləri əks etdirmək məqsədini daşıyır. Birbaşa qarşınıalma tədbirli olaraq, uzun müddətdə işgəncənin baş verə bilməyəcəyi mühitin yaranmasına yönəldilir.[10]

**Dolayı qarşını alma** (saxlama) işgəncə və ya pis rəftar hallarının artıq baş verdiyi zaman olaraq **belə əməllərin təkrar olunmasının qarşısının alınmasına** yönəldilir. Dolayı qarşını alma, baş vermiş halların araşdırılması və sənədləşdirilməsi, pislənməsi, məhkəmə prosesi, əməlləri törətmiş şəxslərin təqib olunması və cəzalandırılması, habelə zərərçəkmiş şəxslər üçün təzminatın verilməsi vasitəsilə potensial işgəncə verənləri işgəncənin "qiymətinin" onun mümkün "bəhrəsindən" qat-qat baha olmasında əmin etmək məqsədini daşıyır.

Bu iki yanaşmada fərqli strategiya və metodologiyadan istifadə olunduğuna görə həmin fərq nəzərə alınmalıdır. Eyni zamanda, onlar bir-birini tamamlayır və işgəncənin qarşısının alınması üzrə kompleks strategiyanın tərkib hissələrini təşkil etməlidirlər.

## 2.2. Risk amillərinin təhlili

İşgəncə və digər formada pis rəftarın ilk səbəblərini səmərəli surətdə əks etdirmək üçün birbaşa qarşını alma strategiyası risk amillərinin (işgəncənin baş verməsinin mümkünlüyünü artıran halların) hərtərəfli təhlilindən başlamalıdır.

Mühüm amil kimi, ümumi **siyasi mühit** nəzərə alınmalıdır, çünki işgəncəni qadağan etməyə siyasi iradənin olmaması, idarəetmənin açıqlığı çatışmazlığı, qanunun aliliyinə hörmətin olmaması və korrupsiyanın yüksək səviyyəsi işgəncə riskini artıra bilərlər. Bu, həmçinin **sosial və mədəni mühitə** aiddir. Zorakılıq mədəniyyəti olduğu, yaxud cəmiyyətdə cinayətə "sərt cavablara" dəstək olduğu hallarda, işgəncənin baş verməsinin riski də artır.

Milli **qanunvericilik** həmçinin təhlil edilməlidir. Konstitusiyada və qanunlarda işgəncə qadağan edildiyi, habelə cinayət məcəlləsində cinayət kimi nəzərdə tutulduğu ölkələrdə işgəncə riski digər ölkələrə nisbətən aşağı ola bilər. Təhlil zamanı həmçinin şəxslərin azadlıqdan məhrum edildiyi yerlərə aid qaydalara və təlimatlara, habelə müvafiq hüquqi təminatların mövcudluğuna diqqət yetirilməlidir. Bundan əlavə, qanunvericilik müddəalarının təcrübədə tətbiq edilməsi yolları təhlil edilməlidir.

**Cinayət mühakimə sisteminin** təşkili və fəaliyyəti – nəzərə alınmalı olan digər mühüm amildir. Məhkəmə sisteminin müstəqilliyinin səviyyəsi, habelə cinayət mühakimə sistemində etiraflardan sübut kimi istifadə olunmasının səviyyəsi işgəncə riskinə bilavasitə təsir edəcəkdir. Həbsdə saxlanılmanın ilkin dövründə işgəncə riski daha yüksək olduğundan, hüquq-mühafizə orqanlarına xüsusi diqqət yetirilməlidir. Bununla əlaqədar olaraq, institusional mədəniyyət, polisin rolu və fəaliyyəti, habelə əməkdaşların işə götürülməsi və təlimi işgəncə riskinə müsbət və ya mənfi təsir göstərə bilərlər.

Nəhayət, ümumi **institusional mühit** təhlilə daxil edilməlidir. Dövlət orqanlarının məsuliyyəti və şəffaflıq səviyyəsi, cinayətkarlığın qarşısının alınmasına dair ictimai siyasətlərin mövcudluğu və şikayət mexanizmlərinin səmərəliliyi – MİHT-lər və vətəndaş cəmiyyəti təşkilatları kimi səmərəli müstəqil kənar aktorlarla yanaşı işgəncə riskini azalda biləcək amillərdir.

[10] Tibb sahəsində, bu, "ilkin profilaktika" adlandırılır (yəni xəstəliyin əmələ gəlməsi riskinin azaltması üçün görülmüş tədbirlər).

### Risk halları

Şəxsin azadlıqdan məhrum edilməsi və bir şəxsin tamamilə digər şəxsdən asılı olduğu gücün tənasübsüzlüyü halları risk hallarını təşkil edir.[11]

İşgəncəyə və ya digər formada pis rəftara məruz qalmaq riski şəxsin həbsdə saxlanılmasının müəyyən dövrlərində, o cümlədən həbsin ilkin dövründə və polis bölməsində saxlama zamanı, habelə bir həbs yerindən digərinə keçirmə zamanı daha yüksəkdir. Azadlıqdan məhrum edilmiş şəxslərin digərləri ilə əlaqə olmadan saxlanılması, xüsusilə yazışma və görüşlər qadağa olunmaqla həbsdə saxlama və ya biradamlıq kamerada saxlama həmçinin işgəncə və ya pis rəftar riskini artıra bilər.

İşgəncə və digər formada pis rəftar riski hər bir qapalı müəssisədə yalnız həbsxanalarda və polis bölmələrində deyil, həmçinin, misal üçün, psixiatriya xəstəxanalarında, yetkinlik yaşına çatmayanlar üçün mərkəzlərdə, miqrantların saxlanılma mərkəzlərində və beynəlxalq hava limanlarındakı tranzit zonalarında mövcuddur.

### Mümkün zərərçəkənlər

İşgəncə və pis rəftar riskinə daha çox məruz qalan şəxslərin və ya qrupların müəyyən edilməsi çətin ola bilər, çünki bu, milli kontekstdən xeyli dərəcədə asılıdır. Faktiki olaraq, hər bir şəxs risk altında ola bilər. Ümumiyyətlə isə, cəmiyyətin həssas və əlverişsiz vəziyyətdə olan qrupları – azlıqlar (irqi, milli, dini və ya dil), qadınlar, azyaşlılar, miqrantlar, əlillər, evsizlər və yoxsullar – adətən daha yüksək səviyyədə işgəncə və pis rəftar risklə üzləşirlər.

Səmərəli preventiv strategiya ilə açıq bəyan edilən və nəzarət oluna bilən, işgəncəyə mübarizə aparmağa müəyyən siyasi iradə tələb olunur. Siyasi müxalifəti susdurmaq üçün işgəncənin sistematik surətdə istifadə edildiyi mühitdə ehtimal var ki, preventiv təşəbbüslər iflasa uğrayacaq və ya siyasi təbliğat üçün istifadə olunacaqdır.

Xüsusilə vurğulanmalıdır ki, heç bir dövlət işgəncə və pis rəftar riskindən qorunmayıb. Nəticədə, hər zaman sayıq olmaq və səmərəli preventiv strategiyaları hazırlamaq və həyata keçirmək lazımdır.

## 3. KOMPLEKS PREVENTİV STRATEGİYANIN ÜÇ KOMPONENTİ

İşgəncənin qarşısının alınması üzrə hərtərəfli strategiyanın hazırlanması üçün üç əlaqəli elementdən ibarət kompleks yanaşma tələb olunur:

- işgəncəni qadağan edən qanunvericilik
- həmin qanunvericiliyin müddəalarının səmərəli surətdə tətbiqi
- qanunvericiliyin və onun tətbiqinin monitorinq mexanizmləri.

İşgəncəyə qarşı mübarizənin diqqəti uzun müddət ərzində bu strategiyanın ilk iki elementinə, xüsusilə qanunların qəbul olunmasına və cinayət təqibinə yönəldilmişdir. Səmərəli qanunvericilik işgəncəyə qarşı mübarizə üzrə hər bir proqramın əsas hissəsidir. Eyni zamanda, sırf qanunların və təlimatların mövcudluğu işgəncənin qarşısının alınması üçün kifayət deyil; onlar həmçinin düzgün anlanmalı və dürüst tətbiq edilməlidir.

Xüsusi diqqət həmçinin milli və beynəlxalq hüquq vasitəsilə cəzasızlığa (cinayət əməlinə görə cəzadan azad etmə) son qoyulmasına yetirilir. Belə istiqamət vacib dolayı qarşını alma olaraq işgəncənin ilk səbəblərini səmərəli surətdə əks etdirməyə yönəlmiş digər yanaşmalarla tamamlanmalıdır.

[11] Bax, İşgəncə üzrə Xüsusi məruzəçinin işləyib hazırladığı “acizlik” anlayışı (E/CN.4/2006/6, 39 və 40-cı paraqraf). “Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Paktın” 10.1-ci maddəsində azadlıq hüququ ilə şəxsi toxunulmazlıq hüququ arasında əlaqə müəyyən edilməklə bildirilir ki, “azadlıqdan məhrum edilmiş bütün şəxslər insanpərvər qaydada və insanın ayrılmaz ləyaqətinə hörmətlə rəftar olunmalıdır.”

Buna görə də, işgəncənin qarşısının alınmasına dair kompleks strategiya üçün birbaşa qarşını almaya və qeyri-qarşıdurma və qeyri-məhkəmə nəzarət mexanizmlərindən istifadəyə yönəlmiş üçüncü element tələb olunur. Həmin mexanizmlərə, misal üçün, saxlanma yerlərinin müstəqil orqanlar tərəfindən müstəqil və qabaqcadan elan edilməyən monitorinq, habelə cəmiyyəti məlumatlandırmaq və işgəncə və pis rəftarın qarşısının alınmasını dəstəkləmək üçün ictimai maarifləndirmə tədbirləri daxil ola bilər.

Belə kompleks preventiv strategiya ev şəklində təsvir edilə bilər: qanunvericilik təməli, qanunvericiliyin tətbiqi divarları, nəzarət mexanizmləri isə damı təşkil edir.




## Müfəssəl qanunvericiliyin mövcudluğu

İşgəncəni qadağan edən güclü qanunvericilik – işgəncənin qarşısının alınmasına dair hər bir strategiyanın həlledici komponentidir. Qanunvericilikdə müvafiq beynəlxalq insan hüquqları standartları əks etdirilməli və işgəncənin qadağan edilməsi və qarşısının alınmasına dair xüsusi müddəalar nəzərdə tutulmalıdır.

Dövlətlər beynəlxalq hüquq normalarından aşağıdakı qaydada istifadə edə bilərlər:

- müvafiq beynəlxalq insan hüquqları müqavilələrini ratifikasiya etməklə
- beynəlxalq insan hüquqları müqavilələrini milli qanunvericiliyə inkorporasiya etməklə
- işgəncənin qadağan edilməsi və azadlıqdan məhrum etməyə dair yumşaq hüquqa əməl etməklə[12].

[12] "Yumşaq hüquq" – beynəlxalq hüquqda məcburi xarakter daşımayan sənədlərə (yəni statusu "Müqavilə hüququ haqqında" 1969-cu il Vyana Konvensiyasına əsasən bağlanmış müqavilədən aşağı olan) aid termindir. Bunlara Baş Məclisin və İnsan hüquqları Şurasının qətnamələrini, habelə beynəlxalq və regional ekspert iclaslarında hazırlanmış fəaliyyət planlarını, davranış məcəllələrini, rəhbər prinsipləri, qaydaları və ya prinsipləri aid etmək olar. Saziş orqanlarının praktikası və yekun rəyləri həmçinin yumşaq hüquq sayıla bilər. Belə sənədlər və tövsiyələr danılmaz mənəvi qüvvəyə malikdir və dövlətlər üçün praktiki bələdçi qismində çıxış edirlər. Onların dəyəri böyük sayda dövlətlər tərəfindən qəbul edilməsindən ibarətdir və məcburi xarakterli olmasa da belə, onlar beynəlxalq arenada geniş surətdə qəbul olunmuş məqsəd və prinsiplərin bəyannaməsi sayıla bilər.

Daxili səviyyədə dövlətlər aşağıdakıları əks etdirən qanunvericilik aktları qəbul etməlidirlər:

- hər hansı işgəncə əməlinin qadağan edilməsi və heç bir halda işgəncəyə bəraət qazandıra bilməyəcəyinin təsbit edilməsi (mümkün olduqda konstitusiya səviyyəsində)
- dünyanın hər hansı yerində törədilməsindən asılı olmayaraq, işgəncə əməllərinin cinayət hüququna əsasən cəzalandırılması
- işgəncə cinayətini cəzalandırmaq üçün müvafiq cəza növlərinin müəyyən edilməsi
- işgəncəyə bəraət qazandırmaq üçün yuxarı vəzifəli şəxsin əmrinə istinad edilməsinin mümkün olmaması
- işgəncə verməklə əldə edilmiş sübutların məhkəmə prosesində mümkün olmaması.

Bundan əlavə, azadlıqdan məhrum edilmiş şəxslər üçün aşağıdakı təminatlar nəzərdə tutulmalıdır:

- həbs ediləndən sonra ailə üzvlərinə və ya üçüncü tərəfə özü barədə məlumat verilməsi hüququ
- vəkilin xidmətindən istifadə etmək və dindirmənin vəkilin iştirakı ilə keçirilməsi hüququ
- həkimin, mümkün olduqda özü tərəfindən seçilmiş həkimin xidmətindən istifadə etmək hüququ
- ifadə verməmək hüququ
- ağlabatan müddət ərzində hakimin qarşısına gətirilmək hüququ
- həbsin və rəftarın qanuniliyinə qarşı etiraz etmək hüququ
- bu hüquqlar barədə anladığı dildə məlumat almaq hüququ.

## Qanunvericiliyin tətbiqi

Qanunvericiliyin səmərəli surətdə tətbiqi üçün işgəncə və pis rəftara dair qanunlara təcrübədə əməl edilməsini təmin etmək məqsədilə müxtəlif səviyyələrdə praktiki tədbirlərin görülməsi tələb olunur.

### Təlim və tədris

Qanunvericiliyin tətbiqində iştirak edən müxtəlif aktorlar, xüsusilə isə cinayət mühakimə sistemində olanlar (hüquq-mühafizə orqanlarının əməkdaşlar, hakimlər və penitensiar xidmət) üçün normativ baza və bu normalara uyğun əməliyyat təcrübələrin inkişafı ilə bağlı zəruri, həm ilkin, həm davamlı təlim tələb olunacaqdır.

### Prosessual tədbirlər

Prosessual təminatlar mövcud olmalı və nəzərdə tutulduğu kimi, xüsusilə azadlıqdan məhrum edilmiş şəxslər üçün işləməlidir. Buna həbs yerlərində bütün reyestrlərin lazımi qaydada aparılmasının, həmçinin polisin davranış məcəllələrinin müntəzəm surətdə yenidən nəzərdən keçirilməsinin təmin olunması daxil edilə bilər.

### Araşdırma və cəzalandırma

İşgəncə barədə şikayətlər, hətta rəsmi şikayət olmasa da, təxirə salmadan, qərəzsiz və səmərəli qaydada araşdırılmalı[13], "araşdırma həm şikayət edilən əməllərin xarakterinin və hallarının, həm də iştirak edə bilmiş şəxsin müəyyən edilməsinə yönəldilməlidir."[14]

Hər hansı qanun pozuntusuna görə müvafiq cəza nəzərdə tutulmalıdır. Belə olmadıqda qanunun qüvvəsini və onun tətbiqini poza biləcək cəzasızlıq mədəniyyəti inkişaf etdirilir.

[13] Bax, İnsan hüquqları Komitəsinin praktikası, xüsusilə *Rodriguez* v. *Uruguay*, İnsan Hüquqları Komitəsi, Kommunikasiya №322/1988, 1994-cü il iyulun 19-da qəbul edilmiş rəy; və *Vadivel Sathasivam and Ms Parathesi Saraswathi* v. *Sri Lanka*, İnsan Hüquqları Komitəsi, Kommunikasiya №1436/2005, 2008-ci il iyulun 8-də qəbul edilmiş rəy.

[14] Bax *Blanco Abad* v. *Spain*, İşgəncə əleyhinə Komitə, Kommunikasiya №59/1996, 1998-ci il mayın 14-də qəbul edilmiş rəy. Araşdırma hüdudları üçün bax *M'Barek* v. *Tunisia*, İşgəncə əleyhinə Komitə, Kommunikasiya №60/1996, 1999-cu il noyabrın 10-da qəbul edilmiş rəy.

Cəzasızlığın aradan qaldırılması üçün tədbirlərin görülməsi işgəncəyə və pis rəftara münasibətdə daha vacibdir, çünki o, bütün hallarda mütləq surətdə qadağandır.

Aşağıdakı tədbirlər görülməlidir:

- məhkəmə sisteminin müstəqilliyinin gücləndirilməsi
- səmərəli və mümkün şikayət mexanizmlərinin yaradılması
- pulsuz hüquqi yardımdan və hüquqi xidmətlərdən istifadə olunmasının təmin edilməsi
- işgəncə və pis rəftar barədə şikayətlərin dərhal və səmərəli surətdə araşdırılması
- qanun pozanların cəzalandırılmasının təmin edilməsi.

## Zərərçəkənlər üçün təzminat

İşgəncənin və pis rəftarın qurbanlarına tam və səmərəli təzminat, o cümlədən restitusiya, kompensasiya, reabilitasiya, satisfaksiya və oxşar halların təkrarlanmasının təminatları verilməlidir.[15]

İqtisadi baxımdan qiymətləndirilə biləcək zərərə görə maddi kompensasiya verilməlidir. Satisfaksiya müxtəlif tədbirləri, o cümlədən zərərçəkmişin ləyaqətini bərpa etmək üçün rəsmi bəyanatın verilməsini, açıq üzr istəməni, yaxud zərərçəkmiş şəxslərin yad edilməsini əhatə edə bilər.



Şəkil: İşgəncənin Qurbanları üçün Beynəlxalq Reabilitasiya Şurası

15 Bax "Beynəlxalq insan hüquqları hüququnun ciddi pozulması və beynəlxalq humanitar hüququnun ciddi pozulmasının qurbanları üçün müdafiə vasitələrə malik olmaq və təzminat almaq hüququna dair Əsas Prinsiplər və Rəhbər Prinsiplər (Baş Məclisin 60/147 saylı 2005-ci il 16 dekabr tarixli qətnaməsi).

## Nəzarət mexanizmləri

İşgəncə riski bütün dövlətlərdə hər zaman mövcud olduğundan səmərəli qanunvericiliyə əlavə olaraq, həmçinin nəzarət mexanizmlərin müəyyən edilməsi zəruridir. Nəzarət mexanizmləri potensial risk sahələrinin müəyyən edilməsinə yardım göstərə və mümkün təminatları təklif edə bilərlər.

Təsisatda yaradılan daxili inzibati nəzarət mexanizmləri – misal üçün, polis müfəttişliyi və həbsxanaların müfəttişliyi – dövlət təsisatlarının fəaliyyətinin və onlar tərəfindən qanunvericiliyin normalarına və təlimatlara riayət edilməsinin monitorinqinə kömək edir. Daxili nəzarət mexanizmləri çox faydalı olsa da, onlar tam müstəqil olmadığına və daha çox inzibati monitorinq funksiyalarını yerinə yetirdikdən sonra belə preventiv iş üçün kifayət deyil.

Daxili nəzarət mexanizmlərindən əlavə saxlanma yerlərinə baş çəkmək üçün müstəqil mexanizmlər yaradılmalıdır. Müstəqil orqanların istənilən vaxt saxlanma yerinə daxil olmağın mümkünlüyünün özü güclü saxlayıcı təsirə malikdir. Belə başçəkmələrin məqsədi işgəncə hallarının sənədləşdirilməsi, yaxud şəraitin və ya dövlət orqanlarının pislənməsi deyil. Əksinə, məqsəd – saxlanma yerlərinin, ümumiyyətlə, fəaliyyətini təhlil etmək və saxlanılan şəxslərlə rəftarın və onların saxlama şəraitinin təkmilləşdirilməsinə yönəlmiş konstruktiv tövsiyələr verməkdir.

Beynəlxalq insan hüquqları sistemində həmçinin mühüm nəzarət mexanizmləri, yəni dövlətin qanunvericiliyi və onun tətbiqi məsələlərini nəzərdən keçirmək və müvafiq tövsiyələr vermək imkanında olan müvafiq saziş orqanları nəzərdə tutulur.

Nəhayət, media və vətəndaş cəmiyyəti təşkilatları işgəncənin qarşısını almaq və onu qadağan etmək üçün səmərəli "qarşılıqlı nəzarət və tarazlıq" sisteminə töhfə verə bilərlər. Məsuliyyətli media reportajlarının verilməsi, ictimai maarifləndirmə kampaniyaları və hədəfli maarifləndirmə tədbirləri nəticəsində məsələ ilə bağlı daha geniş məlumatlanmanı və anlamanı təmin edə, ictimai rəyə təsir edə və maraqlı tərəflərin və qərar qəbul edənlərin münasibətinin dəyişdirilməsinə kömək edə bilər.

# 4. İŞGƏNCƏNİN QARŞISININ ALINMASININ MİHT-lərə AİDİYYƏTİ

MİHT-lər adətən öz ölkələrində işgəncənin və pis rəftarın qarşısının alınması üzrə kompleks strategiyanın hər bir səviyyəsində ideal şəkildə töhfə verə bilərlər.

MİHT-lər aşağıdakılarla səmərəli qanunvericiliyin inkişafına töhfə verə bilərlər:

- dövləti müvafiq beynəlxalq insan hüquqları müqavilələri ratifikasiya etməyə həvəsləndirməklə
- işgəncənin cinayət sayılması və onun vəzifəli şəxslər tərəfindən tətbiqinin qarşısının alınması üçün hüquqi islahatları müdafiə etməklə.

MİHT-lər aşağıdakılarla qanunvericiliyin tətbiqinə töhfə verə bilərlər:

- həbslə bağlı prosessual normalarını nəzərdən keçirməklə
- işgəncə barədə şikayətləri araşdırmaqla
- müvafiq vəzifəli şəxslər üçün təlim proqramlarında iştirak etməklə.

MİHT-lər aşağıdakılarla nəzarət mexanizmlərinə töhfə verə və bu qisimdə çıxış edə bilərlər:

- beynəlxalq orqanlarla əməkdaşlıq etməklə
- saxlanma yerlərinin monitorinqini keçirməklə
- ictimai məlumatlanmanı təşviq etməklə.

### BAX

**Həbs yerlərində şəxslərin işgəncə və pis rəftara məruz qalmasının qarşısını almaqda MİHT-lərin rolu ilə bağlı əlavə görüntülər üçün "İşgəncənin qarşısının alınması" adlı Diskə müraciət et.**

**'Publisistik materiallar' adlı başlığa kliklə və sonra 'Bənd I – MİHTlər: Çağırışla üzbəüz' adlı başlığı seç.**

### ƏSAS MƏSƏLƏLƏR: MÜQƏDDİMƏ

- **Dövlətlərin işgəncənin qarşısını almaq öhdəliyi vardır.**
- **Birbaşa qarşını alma (işgəncənin törədilməsinə mane olmaq üçün onun baş verməsindən əvvəl görülən tədbirlər) ilə dolayı qarşını alma (işgəncənin təkrarlanmaması üçün onun baş vermərsindən sonra görülən tədbirlər) arasında əhəmiyyətli fərq vardır.**
- **İşgəncənin qarşısının alınması üçün üç əsas elementdən ibarət kompleks strategiya tələb olunur: güclü qanunvericilik, qanunvericiliyin səmərəli qaydada tətbiqi, həmçinin qanunvericiliyin və onun tətbiqinin monitorinqi və dəstəklənməsi üçün nəzarət mexanizmləri.**

### DİSKDƏ ƏLAVƏ MƏLUMATLAR

Committee against Torture, general comment No. 2, Implementation of article 2 by States Parties

Basic Principles and Guidelines on the Right to a Remedy and Reparation for Victims of Gross Violations of International Human Rights Law and Serious Violations of International Humanitarian Law; General Assembly resolution 60/147 of 16 December 2005

*12-Point Programme for the Prevention of Torture and Other Cruel, Inhuman or Degrading Treatment or Punishment by Agents of the State*; Amnesty International; 2005 (revised)

*Preventing Torture in the 21st Century*; Essex Human Rights Review (Vol. 6, No. 1); Human Rights Centre, University of Essex; 2009

# I Hissə
# İşgəncənin qadağan edilməsi: Hüquqi fon





**1-ci Fəsil:** İşgəncə nədir?
**2-ci Fəsil:** İşgəncə və digər formada pis rəftar üzrə beynəlxalq və regional sənədlər

# 1-ci Fəsil:
# İşgəncə nədir?

**ƏSAS SUALLAR**

- **İşgəncənin tərifi necə verilir?**
- **Müstəsna hallarda işgəncəyə bəraət qazandırıla bilərmi?**
- **Qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar da qadağan edilir?**

## 1. İŞGƏNCƏNİN TƏRİFİ

İlk növbədə qeyd edilməlidir ki, işgəncənin hüquqi tərifi mediada və ya söhbətlərdə istifadə olunan, adətən ağrının gücünü və yetirilmiş xəsarəti vurğulayan anlayışdan kifayət qədər fərqlidir.

"İşgəncənin və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və cəzalara qarşı Konvensiyanın" 1-ci maddəsində işgəncənin beynəlxalq səviyyədə razılaşdırılmış tərifi nəzərdə tutulur:

> *"İşgəncə" dedikdə, hər hansı bir şəxsə, ondan və ya üçüncü şəxsdən məlumat, yaxud etiraf əldə etmək, onu, özünün və ya üçüncü şəxsin törətdiyi, yaxud törədilməsində şübhəli bilindiyi əmələ görə cəzalandırmaq, yaxud onu və ya üçüncü şəxsi qorxutmaq və ya məcbur etmək kimi məqsədlər üçün, yaxud hər hansı xarakterli ayrı-seçkiliyə əsaslanan hər hansı səbəbə görə vəzifəli şəxs, yaxud rəsmi şəxs qismində çıxış edən digər şəxs tərəfindən, yaxud onun təhrikçiliyi, yaxud razılığı və ya razılaşması ilə qəsdən fiziki və ya psixiki cəhətdən ciddi ağrı və ya iztirab verən hər hansı hərəkətlər başa düşülür. Yalnız qanuni cəza nəticəsində irəli gələn, bu cəzanın ayrılmaz tərkib hissəsi olan, yaxud onun təsadüfən doğurduğu ağrı və ya iztirab bu anlayışa daxil deyil.*

Bu anlayışda üç müştərək element əhatə olunur:

- qəsdən psixiki və ya fiziki cəhətdən ciddi iztirab verilməsi
- bilavasitə və ya dolayısı ilə iştirak edən vəzifəli şəxs tərəfindən
- müəyyən məqsədlə.

Bəzi hallarda, beynəlxalq, regional və ya milli hüquqa əsasən, daha geniş sayda halları əhatə edən işgəncənin anlayışı tətbiq oluna bilər. Daha geniş anlayış tətbiq edildiyi halda, Konvensiya onun məhdudlaşdırılması üçün istifadə edilə bilməz. Onun 1.2 və 16.2-ci maddələrində xüsusilə nəzərdə tutulur ki, onun müddəaları daha qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və ya cəzaları qadağan edən hər hansı digər beynəlxalq sənəddə və ya milli qanunvericilikdə nəzərdə tutulan müddəalara xələl gətirmir. Misal üçün, "İşgəncəni qadağan etməyə və cəzalandırmağa yönəlmiş Amerikalararası Konvensiyada" ağrının və ya iztirabın "ciddi" olması tələb edilməməklə; sırf "kimi məqsədlər üçün" deyil, "hər hansı digər məqsədlə" sözləri istifadə edilməklə; habelə "zərərçəkmişin şəxsiyyətinin məhv edilməsinə, yaxud onun fiziki və ya psixiki imkanlarının məhdudlaşdırılmasına yönəlmiş" metodların ağrı və iztiraba gətirib çıxarmasından asılı olmayaraq, belə metodlara istinad edilməklə işgəncənin tərifi daha geniş verilir.

Qeyd edilməlidir ki, işgəncənin qarşısının alınması üzrə bir çox beynəlxalq mexanizmlər işgəncənin gender baxımından şərhinin vacibliyini və Konvensiyanın tərifinə aid olması çoxdan qəbul olunmuş həbs yerində zorlama, hamilə qadına qarşı zorakılıq və reproduktiv hüquqların rədd edilməsi kimi məsələlərə xüsusi diqqət yetirilməsinin zəruriliyini vurğulayır. Həmçinin qeyd etmək lazımdır ki, "vəzifəli şəxsin, yaxud rəsmi şəxs qismində çıxış edən digər şəxsin razılığı və ya razılaşması ilə"

belə şərh edilmişdir[16] ki, qadınlara, uşaqlara və ya qruplara gizli surətdə yetirilmiş xəsarət, bunun nəticəsində ciddi ağrı, yaxud iztirab yetirildikdə, həmçinin dövlət belə halların qarşısını almaq və ya şəxsləri müdafiə etmək üçün lazımi səy göstərmədikdə, təriflə əhatə olunur, çünki bu, ayrı-seçkilik məqsədləri üçün törədilə bilərdi.

## Qanuni cəza

Konvensiyada nəzərdə tutulmuş işgəncənin tərifindən aydın şəkildə "qanuni cəza nəticəsində irəli gələn, bu cəzanın ayrılmaz tərkib hissəsi olan, yaxud onun təsadüfən doğurduğu ağrı və ya iztirab" istisna edilir. Cəzanın qanuniliyi həm milli, həm beynəlxalq standartlara, o cümlədən BMT-nin "Məhbuslarla rəftara dair Minimal Standart Qaydalarına" (BMT-nin "Bütün şəxslərin işgəncəyə məruz qalmasından müdafiəsi haqqında" 1975-ci il Bəyannaməsində xüsusilə göstərilmişdir) istinadən müəyyən edilməlidir. Belə yanaşmada işgəncənin qadağan edilməsinin mütləq xarakteri, eləcə də onun məntiqli tətbiqinin zəruriliyi etiraf olunur.

Bəzi dövlətlər "qanuni cəza" müddəası ilə əlaqədar bədən cəzaları məsələsini qaldırmışlar. Eyni zamanda, bu müddəa qanunvericiliyə əsasən bədən cəzalarının tətbiqinə bəraət qazandırmaqdan istifadə edilə bilməz. Qəti müəyyən edilmişdir ki, ümumiyyətlə, beynəlxalq hüquqa və xüsusilə İşgəncə əleyhinə Konvensiyaya əsasən bədən cəzaları qadağan edilir.

# 2. İŞGƏNCƏNİN MÜTLƏQ QADAĞAN EDİLMƏSİ

Bəzi insan hüquqları müəyyən şəraitdə (məsələn, ictimai qaydanın mühafizəsi üçün) qanunla nəzərdə tutulmuş qaydada, ictimai maraqlar naminə, başqalarının hüquqlarının və ya cəmiyyətin müdafiəsi üçün zəruri olduğu halda və mütənasib surətdə məhdudlaşdırıla bilər. Belə məhdudiyyətlərin tətbiqi şərtlərinin xüsusi və tam siyahısı insan hüquqlarına dair müxtəlif müqavilələrdə verilir.

Bəzi müqavilələrdə həmçinin rəsmən elan olunmuş fövqəladə vəziyyət zamanı müəyyən insan hüquqlarını məhdudlaşdırmaq imkanı nəzərdə tutulur. Məhdudlaşdırma – normal şəraitdə bu hüquqların pozulmasına gətirəcək qanunları qəbul etmək və ya tədbirləri həyata keçirməkdir.

Eyni zamanda, işgəncə mütləq qadağandır və hər hansı şəraitdə ona bəraət qazandırıla bilməz. Müvafiq beynəlxalq müqavilələrdə işgəncəyə və pis rəftara məruz qalmamaq azadlığı məhdudlaşdırma müddəalarından yekdilliklə istisna edilir.

Bütün dövlətlərə, o cümlədən müvafiq insan hüquqlarına və ya beynəlxalq humanitar hüququna dair müqavilələri ratifikasiya etməmiş dövlətlərə münasibətdə tətbiq olunan beynəlxalq adət hüququnda işgəncənin qadağan edilməsi imperativ norma və ya *jus cogens* sayılır. Bu, deməkdir ki, heç bir halda, hətta müharibə vəziyyətdə, müharibə təhlükəsi altında, daxili siyasi qeyri-sabitlik və ya fövqəladə vəziyyətdə bu qadağadan istisnalara və ya onun məhdudlaşdırılmasına yol verilmir. Halların müstəsnalığından və ya ciddiliyindən asılı olmayaraq, heç bir işgəncə üçün son zərurət, özünü müdafiə və digər müdafiə vəziyyətləri qəbul olunmur.

Hüquqi arqumentlərdən əlavə, həmçinin hər hansı işgəncə əməlini rədd etmək üçün ciddi mənəvi və etik səbəblər vardır.

## İşgəncəyə bəraət qazandırmaq cəhdlərinin rədd edilməsi

İşgəncənin mütləq qadağan edilməsi bəzən insanlar tərəfindən təhlükəsizlik və ya terrorçuluğa qarşı mübarizə bəhanəsi ilə, adətən fərziyyəyə əsaslanan "gec açılan bomba" ssenarisini istifadə etməklə şübhəyə alınır. Bu ssenariyə görə, böyük şəhərin mərkəzində partlamalı bombanı qoymaqda şübhəli terrorçu polis tərəfindən saxlanılır. Polis əmindir ki, şübhəli şəxs minlərlə insanın ölümünün qarşısını almaq üçün zəruri olan məlumatı yalnız işgəncə altında açıqlayacaqdır. Sual verilir: "Şəxsə işgəncə vermək olarmı?"

Belə fərziyyə auditoriyanın emosional reaksiyasına arxalanaraq aşağıdakı fikirləri nəzərdə tutur:

16 Bax İşgəncəyə qarşı Komitənin 2 saylı ümumi şərhi (18-ci paraqraf).

- açıq-aşkar təhlükə mövcuddur
- hücum yaxınlaşır
- hücum nəticəsində böyük sayda insanlar öləcəkdir
- həbsə alınmış şəxs hücumun icraçısıdır
- şəxs hücumun qarşısını alacaq məlumata malikdir
- işgəncənin qarşısını vaxtında almaq üçün zəruri məlumat yalnız işgəncə nəticəsində əldə oluna bilər.

Eyni zamanda, real həyatda bu fikirlərin biri və ya daha çoxu həmişə etibarsızdır. Misal üçün, son fikirlə bağlı ssenaridə fərziyyə olunur ki, şübhəli şəxs işgəncə altında məlumatı verəcəkdir. Əslində isə, işgəncə dəqiq məlumatın əldə edilməsi üçün mahiyyətcə etibarsızdır. Peşəkar müstəntiqlər dəfələrlə vurğulamışlar ki, işgəncəyə əl atmadan dindirmə daha səmərəli aparıla bilər.

“Gec açılan bomba” arqumentini əsaslandıran fikirlər həmçinin digər vəziyyətlərdə işgəncəyə bəraət qazandırmaq üçün istifadə oluna bilər. Misal üçün, özümüzdən soruşa bilərik ki, şübhəli şəxsin həqiqətən bombanın qurulması ilə və ya onun ümumiyyətlə, terrorçuluqla bağlı olub-olmamasında, yaxud şübhəli şəxsin təhlükə barədə etibarlı məlumata malik olub-olmamasında, yaxud təhlükənin bir neçə gündən və ya həftədən sonra olmasında, yaxud ümumiyyətlə, təhlükənin mövcudluğuna əmin olmasaydıq, reaksiyamız bundan fərqli ola bilərdi?

Ssenaridə həmçinin rədd olunmalı gizli fikirlər vardır.

- İşgəncə verənin motivi insanların həyatlarını qorumaq məqsədilə zəruri məlumatın əldə edilməsidir.

  Lakin işgəncə verən şəxs yalnız məlumatı əldə etmək niyyət ilə başlasa da, işgəncə onu törədəni dəyişdirir. Bu, işgəncə əməlinin ayrılmaz tərkib hissəsidir. Daha sonra məqsədin sırf məlumatın əldə edilməsindən ibarət olması barədə fikir çox primitivdir. Həqiqətdə başqa motivlər və emosiyalar, o cümlədən qəzəb, cəzalandırmaq və hakimiyyətdən istifadə etmək hissləri üstün gələ bilər.

- Bu, müntəzəm surətdə təkrarlanmayan, müstəsna haldır.

  Eyni zamanda, belə əməllərə icazə verməsi nəticəsində mütləq təsisat daxilində işgəncənin geniş yayıldığı təhlükəli yolun açılması işgəncənin təbiətindədir.[17]

## 3. DİGƏR QƏDDAR, QEYRİ-İNSANİ VƏ LƏYAQƏTİ ALÇALDAN RƏFTAR

Yuxarıda vurğulandığı kimi, İşgəncə əleyhinə konvensiyaya əsasən işgəncə ilə üç müştərək element əhatə olunur:

- qəsdən psixiki və ya fiziki cəhətdən ciddi iztirab verilməsi
- vəzifəli şəxsin bilavasitə və ya dolayısı ilə iştirak etməsi
- müəyyən məqsədlə.

Bu tərifə görə, hər üç meyara cavab verməyən əməllərin necə təsnif edilməsi və onlara necə reaksiya verilməsi sualı ortaya çıxır. Məsələn, “qəsdən” deyil, etinasızlıqdan törədilən əməl necə qiymətləndirilməlidir? Müəyyən məqsədlə olmayan əməl necə qiymətləndirilməlidir? “Ciddi” olmayan ağrı və ya iztirab verən əməl necə qiymətləndirilməlidir?

Belə hallarda, digər formada qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və cəzaların qadağan edilməsi tətbiq oluna bilər. İşgəncə olduğu kimi, bu qadağan da mütləqdir və məhdudlaşdırıla bilməz.

[17] *Defusing the Ticking Bomb Scenario: Why we must say NO to torture, always*; Association for the Prevention of Torture; 2007; səh. 13-16.

İşgəncə əleyhinə Konvensiyanın 16.1-ci maddəsində tələb olunur ki, “hər bir iştirakçı dövlət (...) 1-ci maddədə müəyyən edildiyi kimi işgəncəni təşkil etməyən digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və cəza əməllərinin vəzifəli şəxs, yaxud rəsmi şəxs qismində çıxış edən digər şəxs tərəfindən, yaxud onun təhrikçiliyi, yaxud razılığı və ya razılaşması ilə törədilməsinin qarşısını almaq öhdəliyini öz üzərinə götürür.”

Bununla da, meyarın birinə cavab vermədiyinə görə işgəncə tərifi ilə əhatə olunmayan hər hansı əmələ İşgəncə əleyhinə Konvensiyanın 16.1-ci maddəsində göstərilən qadağan şamil oluna bilər.[18]

Hökumətlər və vəzifəli şəxslər bəzən belə fikirləşirlər ki, bu formada qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və cəzaların işgəncə tərifi ilə əhatə olunmadığından onun müstəsna hallarda tətbiqi ilə bağlı müəyyən boşluq ola bilər. Belə fikirlər tamamilə səhvdir.

Beynəlxalq hüquqa əsasən, qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və cəzaların bütün formalarının qadağan edilməsi ilə bağlı heç bir boşluq yoxdur. Beynəlxalq hüquqda belə rəftar bütün hallarda qadağan olunur. Bu, hər hansı yerdə azadlıqdan məhrum edilmiş şəxslərlə hər zaman pis rəftarı qadağan edən beynəlxalq insan hüquqları hüququna və beynəlxalq humanitar hüquqa aiddir.

## ƏSAS MƏSƏLƏLƏR: 1-Cİ FƏSİL

- **İşgəncə əleyhinə Konvensiyanın 1-ci maddəsində verilmiş işgəncə tərifi üç müştərək elementi ehtiva edir: qəsdən psixiki və ya fiziki cəhətdən ciddi iztirab verilməsi; vəzifəli şəxsin bilavasitə və ya dolayısı ilə iştirak etməsi; müəyyən məqsədlə.**
- **İşgəncə beynəlxalq hüquqa əsasən qadağan edilir və heç vaxt ona bəraət qazandırıla bilməz. İşgəncənin qadağan edilməsi mütləqdir və qeyd-şərtsizdir.**
- **Qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və cəzalar da mütləq və qeyd-şərtsiz surətdə qadağan edilir.**

## DİSKDƏ ƏLAVƏ MƏLUMATLAR

Human Rights Committee, general comment No. 20: replaces general comment 7 concerning prohibition of torture and cruel treatment or punishment (art. 7); 10 March 1992

***Combating Torture: A Manual for Action***; Amnesty International; 2003

***Torture in International Law: A Guide to Jurisprudence***; Association for the Prevention of Torture, Center for Justice and International Law; 2008

***Defusing the Ticking Bomb Scenario: Why we must say NO to torture, always***; Association for the Prevention of Torture; 2007

[18] Bax *Kostadin Nikolov Keremedchiv* v. *Bulgaria*, İşgəncəyə qarşı Komitə, Kommunikasiya № 257/2004, 2008-ci il noyabrın 11-də qəbul edilmiş rəy.

# 2-ci Fəsil:

# İşgəncə və digər formada pis rəftara dair beynəlxalq və regional sənədlər

**ƏSAS SUALLAR**

- **İşgəncənin mütləq qadağan edilməsi beynəlxalq sənədlərdə təsbit edilmişdir?**
- **İşgəncə əleyhinə Konvensiyanın hansı müddəalarında konkret preventiv tədbirlər nəzərdə tutulur?**
- **Hansı digər beynəlxalq və regional müqavilələr işgəncənin qarşısının alınmasına aiddir? "Yumşaq hüququn" hansı standartları tətbiq olunur?**

## 1. BEYNƏLXALQ MÜQAVİLƏLƏRDƏ İŞGƏNCƏNİN VƏ DİGƏR FORMADA PİS RƏFTARIN QADAĞAN EDİLMƏSİ

İşgəncəni və pis rəftarı mütləq qadağan edən bir sıra beynəlxalq və regional sənədlər mövcuddur.

### 1.1. İnsan hüquqları haqqında Ümumi Bəyannamə

İşgəncənin birmənalı surətdə qadağan edilməsi beynəlxalq insan hüquqları sisteminin təməl sənədinə, yəni İnsan hüquqları haqqında Ümumi Bəyannaməyə daxil edilmişdir.

Onun 5-ci maddəsində bildirilir ki, "Heç kəs işgəncəyə, yaxud qəddar, qeyri-insani və ləyaqəti alçaldan rəftar və ya cəzalara məruz qala bilməz." İnsan hüquqları haqqında Ümumi Bəyannamədə həmçinin deyilir ki, insanların hüquqları pozulduğu təqdirdə onların "səmərəli müdafiə vasitəsinə" hüququ vardır.

Bütün dövlətlərə münasibətdə tətbiq olunan əsas insan hüquqları standartları təsbit edildiyi İnsan hüquqları haqqında Ümumi Bəyannamə beynəlxalq adət hüququnun tərkib hissəsidir.[19]

### 1.2. Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Pakt

"Mülki və siyasi hüquqlar haqqında" Beynəlxalq Paktın 7-ci maddəsində nəzərdə tutulur ki, heç bir şəxs "işgəncəyə və ya qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və ya cəzalara məruz qala bilməz".

Bundan əlavə, 10-cu maddədə bildirilir ki, "azadlıqdan məhrum edilmiş bütün şəxslərlə humanist qaydada və insan şəxsiyyətinin ayrılmaz ləyaqətinə hörmətlə rəftar edilir".

Paktda nəzərdə tutulur ki, hüquqların pozulmasını iddia edən hər bir şəxs səmərəli hüquq müdafiə vasitəsinə malikdir. Bundan əlavə, işgəncəyə və digər formada pis rəftara məruz qalmamaq hüququn məhdudlaşdırılmasına yol verilmir.

19 Beynəlxalq Ədalət Məhkəməsinin Nizamnaməsinin 38 (1)(b) maddəsinə müvafiq olaraq, bu məhkəmədə tətbiq olunan beynəlxalq hüququn mənbələrindən biri – "hüquq kimi qəbul edilmiş ümumi praktikanın sübutu kimi beynəlxalq adətdir". Beynəlxalq adət hüququnun formalaşması üçün davamlı dövlət praktikası və müvafiq *opinio furis* (yəni həmin praktikanın "onu tələb edən qanun aliliyinin mövcudluğuna görə məcburi olmasına" inam; bax North Sea Cases, ICJ Rep. (1969) 44, 77-ci paraqraf).

Paktda təsbit edilmiş hüquqların həyata keçirilməsinə nəzarət etmək üçün bu müqaviləyə əsasən İnsan Hüquqları Komitəsi yaradılmışdır. Nəzarət iştirakçı dövlətlərin, habelə Fakültativ protokola əsasən daxil olan şikayətlərə baxılmaqla həyata keçirilir. İnsan Hüquqları Komitəsinin praktikası, qəbul etdiyi ümumi şərhlər və yekun rəylər Paktda təsbit olunmuş öhdəliklərə və hüquqlara dair mühüm şərhedici bələdçini təşkil edir.

Pakt – onu ratifikasiya etmiş bütün dövlətlər üçün məcburi olan beynəlxalq müqavilədir. Pakta tərəfdar çıxmış dövlətlərin böyük sayda olması (2010-cu ilin aprelinə qədər 165) nəzərdə tutulmuş insan hüquqları standartlarının yüksək səviyyədə qəbul olunmasını göstərir.

## 1.3. "İşgəncələrə və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və ya cəzalara qarşı" BMT-nin Konvensiyası

"İşgəncələrə və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və ya cəzalara qarşı" BMT-nin Konvensiyası – işgəncəyə dair ən mükəmməl beynəlxalq müqavilədir.

Konvensiyada işgəncənin mütləq qadağan edilməsinə dair bir sıra mühüm müddəalar nəzərdə tutulur və müqavilə öhdəliklərinin iştirakçı dövlətlər tərəfindən yerinə yetirilməsinə nəzarət etmək üçün İşgəncəyə qarşı Komitə təsis olunur. Komitə iştirakçı dövlətlərin məruzələrinə və fərdi şikayətlərə baxır. Komitənin yekun rəyləri və fərdi şikayətlərə dair mövqeləri Konvensiyanın şərh olunması üçün əlavə yardım göstərir.

2010-cu ilin aprelinə olan məlumata görə, 146 dövlət Konvensiyanı ratifikasiya etmişdir.

### 1.3.1. İşgəncənin tərifi

Konvensiyanın 1-ci maddəsində işgəncənin aşağıdakı üç əsas elementi ehtiva edən tərifi nəzərdə tutulur:

- qəsdən psixiki və ya fiziki cəhətdən ciddi iztirab verilməsi
- vəzifəli şəxsin bilavasitə və ya dolayısı ilə iştirak etməsi
- müəyyən məqsədlə.

Hesab olunur ki, bu tərif bir neçə tərəfdən məhduddur. Burada işgəncə dövlət nümayəndələri tərəfindən və ya onların iştirakı ilə törədilmiş əməllərlə məhdudlaşdırılır. Dövlət nümayəndəsi olmayan şəxs tərəfindən işgəncə törədildiyi təqdirdə, dövləti məsuliyyətə cəlb etmək üçün vəzifəli şəxslər bu və ya digər yolla iştirak etməlidirlər. İşgəncə əleyhinə Konvensiyanın 1-ci maddəsində bildirilir ki, əməl "vəzifəli şəxsin, yaxud rəsmi şəxs qismində çıxış edən şəxsin təhrikçiliyi, yaxud razılığı və ya razılaşması ilə" törədilməlidir.[20]

Eyni zamanda, Konvensiyada işgəncə əməllərinin xüsusilə göstərilməməsi bu müqavilənin güclü tərəflərindən birini təşkil edir. Belə siyahıda hazırda və ya gələcəkdə istifadə oluna bilən işgəncənin hər bir mümkün metodu heç vaxt göstərilə və ya təsvir edilə bilməzdi.

### 1.3.2. Preventiv tədbirlər görmək öhdəliyi

Konvensiyanın 2-ci maddəsinə müvafiq olaraq, hər bir iştirakçı dövlətin işgəncə əməllərinin qarşısını almaq üçün bütün zəruri tədbirləri görmək öhdəliyi vardır. Buna qanunvericilik, inzibati və məhkəmə tədbirləri, habelə münasib olan hər hansı başqa tədbirlər daxildir.

Bu, hüquq baxımından məcburi öhdəlikdir və İşgəncəyə qarşı Komitəyə məruzə təqdim edən iştirakçı dövlət bu öhdəliyin yerinə yetirilməsi üçün görülmüş tədbirləri izah etməlidir.

[20] Bax konvensiyanın 1-ci maddəsindəki "vəzifəli şəxs" tərifinə aid *Elmi* v. *Australia*, İşgəncəyə qarşı Komitə, Kommunikasiya № 120/1998 (1999-cu il mayın 14-də qəbul edilmiş rəy). Dövlət orqanlarının heç olmadığı müstəsna hallarda (o zaman Somalidə mərkəzi hökumət olmamışdır) kvazi-məhkəmə səlahiyyətlərini həyata keçirən qrupların əməlləri 1-ci maddədəki tərifə əhatə oluna bilər.

Azadlıqdan məhrum edilmiş şəxslərə münasibətdə işgəncə və pis rəftarın qarşısının alınmasına yönəlmiş fəaliyyətin planlaşdırılması və həyata keçirilməsi zamanı MİHT-lər də bu öhdəliyə müraciət edə bilərlər.

### 1.3.3. İşgəncəyə heç vaxt bəraət qazandırıla bilməz

Konvensiyanın 2.2-ci maddəsində bildirilir ki, “heç bir müstəsna hal” işgəncəyə bəraət qazandıra bilməz. Buna müharibə və müharibənin təhlükəsi, siyasi qeyri-sabitlik, terrorçuluqla mübarizə və ya hər hansı başqa fövqəladə vəziyyət daxildir.

Yuxarı rütbəli əməkdaşın əmri də işgəncəyə bəraət qazandırmır. Hüquq-mühafizə və penitensiar orqanlarının əməkdaşları üçün belə əmrlərə tabe olmamaq öhdəliyini açıqlayan təlim təmin olunmalıdır.

### 1.3.4. Şəxsin başqa dövlətə verilməsinin qadağan edilməsi (Non-refoulement)

Konvensiyanın 3-cü maddəsində “non-refoulement” prinsipi təsbit edilir: heç bir iştirakçı dövlət şəxsi onun işgəncəyə məruz qalması təhlükəsinin olmasını ehtimal etməyə “ciddi əsaslar” mövcud olduğu başqa dövlətə çıxartmamalı, qaytarmamalı və ya ekstradisiya etməməlidir.

“Non-refoulement” prinsipi – işgəncənin və digər formada pis rəftarın qadağan edilməsinin mütləq xarakterinin göstəricisidir. Son illərdə o, bəzi dövlətlərin qaytarılan şəxsin işgəncəyə və ya pis rəftara məruz qala biləcəyi ilə bağlı məlum risklər olduqda diplomatik təminatları almağa çalışmaq praktikası nəticəsində pozulmuşdur. Bu praktikadan belə adlanmış terrorla mübarizə çərçivəsində istifadə edilmişdir ki, göndərən dövlət qəbul edən dövlətdən müvafiq şəxsin işgəncəyə və ya digər formada pis rəftara məruz qalmayacağının təminatlarını almağa çalışmışdır. Hesab olunur ki, “non-refoulement” prinsipini pozan bu praktikaya yol verilməməlidir.

### 1.3.5. İşgəncə cinayəti

Konvensiyanın 4-cü maddəsində tələb olunur ki, hər bir iştirakçı dövlət öz cinayət qanunvericiliyində işgəncənin cinayət sayılmasını təmin etsin.

Bəzi dövlətlər iddia edir ki, işgəncə əməllərinin cinayət məcəlləsində mövcud cinayətlərlə əhatə olunduğuna görə bu, zəruri deyil.



Şəkil: İşgəncənin Qurbanları üçün Beynəlxalq Reabilitasiya Şurası

Eyni zamanda, bu müddəa xüsusi əhəmiyyət kəsb edir, çünki:

- işgəncə yalnız zorakı hücum deyil, hər hansı başqa cinayətə aid olmayan, zərərçəkmiş üzərində hakimiyyətdən istifadədir
- işgəncənin cinayət sayılması bu əməlin xüsusi təbiətini və ciddiliyini müəyyən edir
- işgəncənin xüsusi cinayət sayılması rəsmi şəxslərə belə təcrübənin cəzalandırılması barədə xəbərdarlığı, bununla da mühüm saxlayıcı vasitəni təşkil edir
- əməlin ciddiliyi nəzərə alınaraq, münasib cəzanın zəruriliyini vurğulayır
- cavabdeh rəsmilərinin işgəncə cinayətinə nəzarət etmək imkanlarını artırır.

İşgənəyə qarşı Komitə tələb edir ki, iştirakçı dövlətlər, ən azı, Konvensiyanın 1-ci maddəsində verilmiş işgəncə tərifini tətbiq etsinlər.

### 1.3.6. Universal yurisdiksiya

Konvensiyada hər bir iştirakçı dövlətin, işgəncə cinayətinin onun hüdudlarından kənar törədilməsindən və mümkün cinayətkarın vətəndaşlığından, yaşadığı ölkədən və ya ölkə ilə hər hansı əlaqələrin olmadığından asılı olmayaraq, bu cinayət üzərində öz yurisdiksiyasını müəyyən etmək öhdəliyi müəyyən edilir (5-9-cu maddələr). Dövlət cinayətə görə təqib etmək imkanında deyilsə, ondan tələb olunur ki, mümkün cinayətkarı onu təqib etmək imkanında və iqtidarında olan dövlətə ekstradisiya etsin. Həmin universal yurisdiksiya prinsipi Konvensiyanın ən vacib tərəflərdən biridir.[21]

İşgəncə geniş yayılmış və ya sistematik hücumların tərkib hissəsi olduqda, yaxud silahlı münaqişə zamanı baş verdikdə, işgəncəyə görə məsuliyyət daşıyanlar Beynəlxalq Cinayət Məhkəməsinə verilə bilər, çünki işgəncə insanlıq əleyhinə və müharibə cinayəti hesab edilir. Eyni zamanda, bütün işgəncə əməllərini əhatə edən və universal yurisdiksiyanı həyata keçirmək öhdəliyini yaradan İşgəncə əleyhinə Konvensiya daha böyük sayda dövlətlər tərəfindən ratifikasiya edilmişdir.

### 1.3.7. Rəsmilərin təlimi

Konvensiyanın 10-cu maddəsində iştirakçı dövlətlərdən hüquq-mühafizə orqanlarının əməkdaşları, tibb işçiləri, vəzifəli şəxslər və azadlıqdan məhrum etmə ilə məşğul olan başqa şəxslər üçün işgəncənin qadağan edilməsinə və qarşısının alınmasına dair tədris və informasiyanın təmin edilməsi tələb olunur.

### 1.3.8. Həbsdə saxlama qaydalarının nəzərdən keçirilməsi

Konvensiyanın 11-ci maddəsinə əsasən, iştirakçı dövlətlər dindirməyə dair qaydaları, təlimatları, üsulları və təcrübələri, habelə həbslə bağlı prosedurları müntəzəm surətdə nəzərdən keçirməlidirlər. Bunlar BMT-nin "Məhbuslarla rəftara dair Minimal Standart Qaydalarına" və BMT-nin "Hər hansı formada tutulmuş və ya azadlıqdan məhrum olunmuş bütün şəxslərin müdafiəsi üzrə Prinsiplər Külliyyatına" uyğun olmalıdır.

### 1.3.9. Təxirəsalınmaz istintaq

Konvensiyanın 12-ci maddəsinə müvafiq olaraq, hər bir iştirakçı dövlət onun yurisdiksiyası hüdudlarında olan hər hansı ərazidə işgəncənin törədildiyini ehtimal etməyə kifayət qədər əsas olduqda, təxirəsalınmaz və qərəzsiz istintaqın aparılmasını təmin edir. Bu, o deməkdir ki, hətta rəsmi şikayət olmadığı halda, hər hansı işgəncə və ya pis rəftar hadisəsi barədə məlumat daxil olduqda müvafiq dövlət orqanları qərəzsiz, səmərəli, müstəqil və hərtərəfli istintaq aparmalıdırlar.

---

[21] Bax, Seneqalda Hissène Habrénin məhkəməsinə aid, İşgəncəyə qarşı Komitənin qərarı (*Suleymane Guengueng and others* v. *Senegal*, İşgəncəyə qarşı Komitə, Kommunikasiya № 181/2001, 2006-cı il mayın 17-də qəbul edilmiş rəy).

### 1.3.10. Zərərçəkmişlərin şikayət etmək və təzminat almaq hüququ

Konvensiyada nəzərdə tutulur ki, işgəncə qurbanlarının şikayət etmək və şikayətlərinin təxirəsalınmaz və qərəzsiz araşdırılması (13-cü maddə), habelə təzminat və münasib kompensasiya almaq hüququ vardır (14-cü maddə). Buna həmçinin mümkün qədər tam reabilitasiya olunmaq hüququ daxildir.[22]

### 1.3.11. Qeyri-mümkün sübut

Konvensiyanın 15-ci maddəsinə müvafiq olaraq, işgəncə nəticəsində əldə edilmiş hər hansı sübut məhkəmə prosesində qeyri-mümkün hesab edilməlidir. Bu müddəa xüsusi əhəmiyyət kəsb edir, çünki belə ifadələr məhkəmə prosesində qeyri-mümkün edilməklə, işgəncənin başlıca məqsədlərindən biri mənasını itirir.

### 1.3.12. İşgəncə əleyhinə Konvensiyanın Fakültativ Protokolu

İşgəncə əleyhinə Konvensiya 2002-ci ildə qəbul edilmiş və 2006-cı ildə qüvvəyə minmiş Fakültativ Protokolla tamamlanır. Fakültativ Protokolda yeni normativ standartlar müəyyən edilmir. Əksinə, burada həbs yerlərinə beynəlxalq və milli orqanlar tərəfindən müntəzəm başçəkmələr sistemi müəyyən edilərək Konvensiyanın 2 və 16-cı maddələrindəki işgəncənin qarşısının alınmasına dair öhdəliklərə yeni qüvvə verilir.

**BAX**

**İşgəncə əleyhinə Konvensiyada nəzərdə tutulmuş işgəncə tərifini müzakirə edən İşgəncənin Qarşısının Alınması üzrə Altkomitənin sədri Victor Rodriguez Rescia-nı görmək üçün "İşgəncənin qarşısının alınması" Diskə müraciət et.**

**'Publisistik materiallar' adlı başlığa kliklə və sonra 'Bənd 2 – İşgəncənin tərifi' adlı başlığı seç.**



## 1.4. Digər müqavilələr

Bir sıra başqa beynəlxalq insan hüquqları müqavilələrində işgəncənin və digər formada pis rəftarın qadağan olunmasına dair oxşar müddəalar nəzərdə tutulur.

"Uşaq hüquqları haqqında" Konvensiyada uşaqlara münasibətdə işgəncə və pis rəftara dair xüsusi müddəa (37-ci maddə), habelə "Bütün fəhlə miqrantların və onların ailə üzvlərinin hüquqlarının müdafiəsi haqqında" Konvensiyada (10-cu maddə) və "Əlillərin hüquqları haqqında" Konvensiyada bununla bağlı müddəalar nəzərdə tutulur.

"Qadınlara münasibətdə ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında" Konvensiyada işgəncə ilə bağlı ayrıca müddəanın olmadığına baxmayaraq, BMT-nin müvafiq saziş orqanı işgəncə ilə əlaqədar olan, qadınlara münasibətdə zorakılığa dair ümumi tövsiyəni qəbul etmişdir (Ümumi tövsiyə 19,1992).

Qaçqınlar üzrə beynəlxalq hüquq həmçinin işgəncə məsələsi ilə sıx bağlı olan, beynəlxalq insan hüquqları hüququnun vacib mənbəyini təşkil edir. Digər dövlətdə sığınacaq istəmək hüququ – təqib olunmaq təhlükəsi ilə üzləşən hər kəs üçün əsas müdafiə vasitələrindəndir. Şəxsin onun ciddi insan hüquqları pozuntularına, xüsusilə işgəncəyə məruz qalmaq təhlükəsi olduğu ölkəyə hər hansı hökumət tərəfindən qaytarılması, ümumiyyətlə, qadağan olunur. Bu, İşgəncə əleyhinə Konvensiyada xüsusilə göstərilən "non-refoulement" prinsipidir.

[22] Bax, 13 və 14-cü maddələr üzrə praktika (*Hajrizi Dzemajl et al.* v. *Yugoslavia*, İşgəncəyə qarşı Komitə, Kommunikasiya №161/2000, 2002-ci il noyabrın 21-də qəbul edilmiş rəy; *Jovica Dimitrov* v. *Serbia and Montenegro*, İnsan Hüquqları Komitəsi, Kommunikasiya №171/2000, 2005-ci il mayın 3-də qəbul edilmiş rəy; *Danilo Dimitrijevic* v. *Serbia and Montenegro*, İnsan Hüquqları Komitəsi, Kommunikasiya №172/2000, 2005-ci il noyabrın 16-da qəbul edilmiş rəy; *Dragan Dimitrijevic* v. *Serbia and Montenegro*, İnsan Hüquqları Komitəsi, Kommunikasiya №207/2002, 2004-cü il noyabrın 24-də qəbul edilmiş rəy; *Slobodan & Ljiljana Nikolic* v. *Serbia and Montenegro*, İnsan Hüquqları Komitəsi, Kommunikasiya №174/2000, 2005-ci il noyabrın 24-də qəbul edilmiş rəy.

Silahlı münaqişə zamanı tətbiq olunan Cenevrə konvensiyaları, sırf insan hüquqları müqavilələri olmasa da, onların ümumi 3-cü maddəsində işgəncə aydın və birmənalı surətdə qadağan olunur.

Həmçinin Beynəlxalq Cinayət Məhkəməsinin Roma Statusunda işgəncə Məhkəmənin yurisdiksiyasına daxil olan insanlıq əleyhinə cinayət kimi göstərilir. 7(2)(e) maddəsində işgəncə “həbsdə saxlanılan, yaxud təqsirləndirilən şəxsin nəzarətində olan şəxsə qəsdən fiziki və ya psixiki cəhətdən ciddi ağrı və ya iztirab verməsi” kimi müəyyən olunur; “qanuni cəza nəticəsində irəli gələn, bu cəzanın ayrılmaz tərkib hissəsi olan, yaxud onun təsadüfən doğurduğu ağrı və ya iztirab işgəncəyə aid deyil”. Bu tərifdə həm dövlət, həm qeyri-dövlət aktorlarının törətdiyi əməllər daxil olduqdan, habelə işgəncənin məqsədi müəyyən edilmədiyindən, o, İşgəncə əleyhinə Konvensiyadakı tərifdən daha genişdir.

## 2. İŞGƏNCƏNİN VƏ DİGƏR PİS RƏFTARIN REGİONAL SƏNƏDLƏRDƏ QADAĞAN EDİLMƏSİ

İşgəncəni aydın və birmənalı surətdə qadağan nəzərdə tutulduğu dörd – Avropada, Afrikada, Ərəb ölkələrində və Amerikada – ümumi regional insan hüquqları müqaviləsi mövcuddur. Xüsusilə işgəncəyə dair iki – Avropada və Amerikada – regional müqavilə mövcuddur.

### 2.1. İnsan hüquqlarına dair Avropa Konvensiyası

1950-ci ildə qəbul edilmiş İnsan hüquqlarına dair Avropa Konvensiyası – Avropa Şurasının regional müqaviləsidir. 3-cü maddədə bildirilir ki:

> *Heç kəs işgəncəyə, yaxud qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və cəzalara məruz qala bilməz.*

Avropa Şurasında həmçinin bilavasitə işgəncə ilə əlaqədar müqavilə qəbul edilmişdir: “İşgəncənin qarşısının alınması haqqında” Avropa Konvensiyası (1987-ci il). Bu müqavilədə hər hansı yeni norma müəyyən olunmasa da, başçəkmə səlahiyyətli Komitə yaradılır (əlavə məlumat üçün bax 7-ci fəsilə).

### 2.2. Amerika Dövlətləri Təşkilatının müqavilələri

1969-cu ildə qəbul edilmiş “İnsan hüquqları haqqında Amerika Konvensiyası” – Amerika Dövlətləri Təşkilatının regional müqaviləsidir. 5-ci maddədə bildirilir ki:

> *Hər bir şəxsin onun fiziki, əqli və psixiki toxunulmazlığına hörmətlə yanaşma hüququ vardır. Heç kəs işgəncəyə və ya qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan cəzalara və ya rəftara məruz qala bilməz. Azadlıqdan məhrum edilmiş bütün şəxslərlə insan şəxsiyyətinin ayrılmaz ləyaqətinə hörmətlə rəftar olunmalıdır.*

Amerika Dövlətləri Təşkilatında həmçinin işgəncə ilə əlaqədar ayrıca müqavilə qəbul edilmişdir: “İşgəncəni qadağan etməyə və cəzalandırmağa yönəlmiş Amerikalararası Konvensiya” (1985-ci il). Konvensiyada işgəncənin aşağıdakı ətraflı tərifi verilir (2-ci maddə):

> *Bu Konvensiyanın məqsədləri üçün “işgəncə” dedikdə, cinayət işi üzrə istintaqın məqsədləri üçün, qorxutmaq vasitəsi kimi, şəxsin cəzalandırılması vasitəsi kimi, preventiv tədbir kimi, cəza kimi, yaxud hər hansı digər məqsədlə şəxsə fiziki və ya psixiki ağrı, yaxud iztirab verməklə qəsdən törədilmiş əməl başa düşülür. İşgəncə kimi, həmçinin zərərçəkmişin şəxsiyyətinin məhv edilməsinə, yaxud onun fiziki və ya psixiki imkanlarının məhdudlaşdırılmasına yönəlmiş metodların, hətta onların fiziki və ya psixiki ağrıya gətirib çıxarmasından asılı olmayaraq, şəxs barəsində tətbiq edilməsi başa düşülür.*

Burada ağrının və ya iztirabın “ciddi” olması tələb edilməməklə; sırf ”kimi məqsədlər üçün” deyil, “hər hansı digər məqsədlə” sözləri istifadə edilməklə; habelə “zərərçəkmişin şəxsiyyətinin məhv edilməsinə, yaxud onun fiziki və ya psixiki imkanlarının məhdudlaşdırılmasına yönəlmiş”

metodların ağrı və iztiraba gətirib çıxarmasından asılı olmayaraq, belə metodlara istinad edilməklə işgəncənin tərifi İşgəncə əleyhinə Konvensiyasındakından daha geniş verilir.

Konvensiyada həmçinin bildirilir ki, işgəncə verən, yaxud onun verilməsi barədə əmr verən və ya qarşısını almayan hər hansı vəzifəli şəxs cinayətin törədilməsində təqsirlidir, əmrə tabe olma isə cinayətə bəraət qazandırmır. Konvensiyada nəzərdə tutulur ki, işgəncənin mütləq qadağan edilməsi heç bir halda məhdudlaşdırıla bilməz.

Amerikalararası Konvensiyada daha sonra tələb olunur ki:

- polis və digər vəzifəli şəxslərin işgəncənin qarşısının alınmasına dair hazırlığı təmin edilsin
- işgəncə barədə şikayətlər araşdırılsın və müvafiq hallarda cinayət təqibi həyata keçirilsin
- işgəncə nəticəsində zərər çəkmiş şəxslər üçün kompensasiya nəzərdə tutulan qanunlar qəbul edilsin
- işgəncə altında əldə edilmiş ifadələr məhkəmə prosesində sübut kimi mümkün olmasın
- dövlətlər işgəncədə şübhəli bilinən şəxsləri təqib etsin və ekstradisiya etsinlər.

Konvensiyada həmçinin tələb olunur ki, iştirakçı dövlətlər digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və ya cəzaların qarşısını almaq üçün səmərəli tədbirlər görsünlər.

Konvensiyada ayrıca icra mexanizmi nəzərdə tutulmasa da, İnsan Hüquqları üzrə Amerikalararası Komissiyanın üzv-dövlətlərdə işgəncə praktikasına dair hesabat vermək öhdəliyi, Amerikalararası Məhkəmənin isə bu müqavilə üzrə yurisdikasiyası vardır.

## 2.3. İnsan və xalqların hüquqları haqqında Afrika Xartiyası

Afrika Birliyi Təşkilatı tərəfindən 1981-ci ildə qəbul edilmiş Afrika Xartiyasında bildirilir ki:

> *Hər bir şəxsin insanın ayrılmaz ləyaqətinə hörmətlə yanaşma və onun hüquqi statusunun tanınması hüququ vardır. İnsanın hər hansı formada istismarı və alçaldılması, xüsusilə köləlik, qul alveri, işgəncə, qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan cəzalar və rəftar qadağan edilir.*

## 2.4. İnsan hüquqları haqqında Ərəb Xartiyası

Ərəb Dövlətləri Liqası tərəfindən 2004-cü il mayın 22-də qəbul edilmiş və 2008-ci il martın 15-də qüvvəyə minmiş “İnsan hüquqları haqqında Ərəb Xartiyasında” nəzərdə tutulur ki:

> *1. Heç kəs fiziki və ya psixoloji işgəncəyə, yaxud qəddar, ləyaqəti alçaldan, hörmətdən salan və ya qeyri-insani rəftara məruz qala bilməz.*
>
> *2. Hər bir iştirakçı dövlət öz yurisdikiyasında olan hər bir şəxsi belə təcrübələrdən qoruyur və onların qarşısını almaq üçün səmərəli tədbirləri həyata keçirir. Belə əməllərin törədilməsi, yaxud törədilməsində iştirak qanunla cəzalandırılan və barəsində cinayət məsuliyyətinə cəlb olunması müddətləri tətbiq olunmayan cinayət hesab olunur. Hər bir iştirakçı dövlət işgəncənin qurbanları üçün təzminat, habelə reabilitasiya və kompensasiya hüququnu öz qanunvericiliyində təmin edir.*

# 3. ÜMUMİ STANDARTLAR

Həmin müxtəlif müqavilələrdən əlavə olaraq, işgəncənin qarşısının alınmasına aid olan bir sıra ümumi standartlar və peşə prinsipləri mövcuddur.

Belə “yumşaq hüquq” standartları müqavilə öhdəlikləri ilə eyni qaydada yerinə yetirilə bilməzlər. Lakin onlar “qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və ya cəzalar” anlayışını şərh etmək, habelə müqavilə öhdəliklərini həyata keçirmək üçün hərtərəfli və faydalı bələdçini təşkil edir.

Məsələn, İşgəncəyə qarşı Komitə həbslə bağlı prosedurların müntəzəm surətdə nəzərdən keçirilməsini tələb edən İşgəncə əleyhinə Konvensiyanın 11-ci maddəsinin müddəalarının həyata keçirilməsi üçün iştirakçı dövlətlər tərəfindən görülmüş tədbirləri öyrənərkən BMT-nin "Məhbuslarla rəftara dair Minimal Standart Qaydalarına" müraciət edir.

## 3.1. BMT-nin standartları

İşgəncənin qarşısının alınması ilə əlaqədar olaraq Birləşmiş Millətlər Təşkilatı tərəfindən bir sıra standartlar, o cümlədən aşağıdakılar işlənib hazırlanmışdır:

- "Məhbuslarla rəftara dair Minimal Standart Qaydaları"
- "Məhbuslarla rəftara dair Əsas Prinsiplər"
- "Hər hansı formada tutulmuş və ya azadlıqdan məhrum olunmuş bütün şəxslərin müdafiəsi üzrə Prinsiplər Külliyyatı"
- "Azadlıqdan məhrum edilmiş yetkinlik yaşına çatmayanların müdafiəsinə dair Qaydaları"
- "Yuvenal ədliyyənin həyata keçirilməsinin Minimal standart qaydaları" ("Pekin qaydaları")
- "Tutulmuş şəxslərin və məhbusların işgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza növlərindən müdafiəsində tibbi heyətin, o cümlədən həkimlərin roluna dair Tibbi Etika Prinsipləri"
- "Model autopsiya qaydaları"
- "Hüquq-mühafizə orqanları əməkdaşlarının Davranış Məcəlləsi"
- "Hüquq-mühafizə orqanlarının əməkdaşları tərəfindən gücün və odlu silahın tətbiqinə dair Əsas Prinsiplər"
- "İşgəncə və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və ya cəzalar hallarının səmərəli surətdə araşdırılması və sənədləşdirilməsinə dair Prinsiplər" ("İstanbul Protokolu").

## 3.2. Regional standartlar

### Avropa Şurası

İşgəncənin qarşısının alınması ilə bağlı Avropa Şurasında bir cıra sənədlər hazırlanmış, həmçinin Nazirlər Komitəsi tərəfindən bir neçə tövsiyə qəbul edilmişdir.

Aidiyyəti olan standartlar aşağıdakılardır:

- "Avropa Həbsxana Qaydaları" (2006-cı ilin yanvarında yenidən baxılmışdır)
- "Polis haqqında Bəyannamə"
- "Polis etikasına dair Avropa Məcəlləsi"
- İşgəncənin qarşısının alınması üzrə Avropa Komitəsinin hazırladığı standartlar.

2001-ci ildə Avropa İttifaqı tərəfindən həmçinin "İşgəncə və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və cəzalara dair Rəhbər prinsipləri" qəbul edilmişdir.

### Amerika Dövlətləri Təşkilatı

2008-ci ilin martında "Amerikada azadlıqdan məhrum edilmiş şəxslərin müdafiəsinə dair prinsiplər və ən yaxşı təcrübələr" İnsan hüquqları üzrə Amerikalararası Komissiya tərəfindən qəbul edilmişdir.

### Afrika Birliyi

İnsan və Xalqların Hüquqları üzrə Afrika Komissiyası tərəfindən "Afrikada işgəncənin, qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və cəzaların qadağan edilməsi və qarşısının alınmasına dair Rəhbər Prinsiplər və Tədbirlər" qəbul edilmişdir ("Robben adaları Rəhbər prinsipləri").

Onun tərəfindən həmçinin işgəncənin qarşısının alınması üzrə müddəalar əhatə olunan "Afrikada ədalətli məhkəmə və hüquqi yardım hüququna dair Prinsiplər və Bələdçi" qəbul edilmişdir.

## ƏSAS MƏSƏLƏLƏR: 2-Cİ FƏSİL

- **İşgəncə bir sıra beynəlxalq insan hüquqları müqavilələrlə qadağan edilir.**
- **İşgəncə əleyhinə Konvensiyada preventiv tədbirlər barədə bir sıra müddəalar nəzərdə tutulur.**
- **Afrika, Amerika, Ərəb ölkələri və Avropanın regional sənədlərində həmçinin işgəncə qadağan edilir.**
- **"Beynəlxalq və regional "yumşaq hüquq" standartları işgəncənin və digər pis rəftarın qadağan edilməsini tamamlayırlar.**

## ƏLAVƏ OXU MATERİALLARI

***The United Nations Convention against Torture: A Commentary*;** Manfred Nowak and Elizabeth McArthur; Oxford University Press; 2008

***The UN Committee against Torture: An Assessment*;** Chris Inglese, Kluwer Law International; 2001

## DİSKDƏ

Committee against Torture, general comment No. 2, Implementation of article 2 by States Parties

***The Torture Reporting Handbook*;** Camille Giffard, Human Rights Centre, University of Essex; 2000

***Bringing the International Prohibition of Torture Home: National Implementation Guide for the UN Convention against Torture and Other Cruel, Inhuman or Degrading Treatment or Punishment*;** The Redress Trust; 2006

***Torture in International Law: A Guide to Jurisprudence*;** Association for the Prevention of Torture and the Center for Justice and International Law; 2008

***Article 3 of the European Convention on Human Rights: A Practitioner's Handbook*;** Ugur Erdal and Hasan Bakirci, World Organisation Against Torture (OMCT) Handbook Series Vol. 1; 2006

***The Prohibition of Torture and Ill-Treatment in the Inter-American Human Rights System: A Handbook for Victims and Their Advocates*;** Diego Rodriguez-Pinzón and Claudia Martin, World Organisation Against Torture (OMCT) Handbook Series Vol. 2; 2006

***The Prohibition of Torture and Ill-Treatment in the African Human Rights System: A Handbook for Victims and Their Advocates*;** Frans Viljoen and Chidi Odinkalu, World Organisation Against Torture (OMCT) Handbook Series Vol. 3; 2006



# II Hissə
# İşgəncənin qarşısının alınması: MİHT-lərin fəaliyyəti





**I Bölmə:** Səmərəli qanunvericiliyin təşviqi
**II Bölmə:** Qanunvericilik müddəalarının həyata keçirilməsinə yardım
**III Bölmə:** Nəzarət mexanizmi qismində fəaliyyət
**IV Bölmə:** Kəsişən fəaliyyətlər

# II Hissənin Təqdimatı

İşgəncənin qarşısının alınmasına dair başlıca öhdəlik işgəncənin və digər formada pis rəftarın qarşısını almaq üçün bütün tədbirləri həyata keçirmək vəzifəsi olan dövlətlərə mənsubdur.

İnsan hüquqlarının müdafiəsinə dair güclü sistemin əsas elementi olan MİHT-lər bu öhdəliyin dövlətlər tərəfindən yerinə yetirilməsinin təmin edilməsində mühüm rol oynaya bilərlər.

İşgəncənin qarşısının alınması üzrə kompleks strategiyanın üç ölçüsünün hər biri çərçivəsində MİHT-lərin görə bildiyi praktiki tədbirlər II hissədə təfərrüatlı təsvir olunur. Bundan əlavə, dördüncü bölmədə MİHT-lərin nəzərinə kəsişmə tədbirləri təqdim olunur. Hər fəsildə dünyanın müxtəlif yerlərindən MİHT-lərin yaxşı təcrübələrinin nümunələri verilir.

## I Bölmə: Səmərəli qanunvericiliyin təşviqi

**3-cü Fəsil:** Hüquqi və prosessual islahatların təşviqi

## II Bölmə: Qanunvericilik müddəalarının həyata keçirilməsinə yardım

**4-cü Fəsil:** İşgəncə barədə şikayətlərin araşdırılması

**5-ci Fəsil:** Müsahibə

**6-cı Fəsil:** Vəzifəli şəxslər üçün təlim

## III Bölmə: Nəzarət mexanizmi qismində fəaliyyət

**7-ci Fəsil:** Beynəlxalq mexanizmlərlə əməkdaşlıq

**8-ci Fəsil:** Saxlanma yerlərinin monitorinqi

**9-cu Fəsil:** İctimai məlumatlanmanın təşviqi

## IV Bölmə: Kəsişən fəaliyyətlər

**10-cu Fəsil:** MİHT-lər və İşgəncə əleyhinə Konvensiyanın Fakültativ protokolu

**11-ci Fəsil:** İctimai araşdırmalar



# I Bölmə
# Səmərəli qanunvericiliyin təşviqi





**3-cü Fəsil:** **Hüquqi və prosessual islahatların təşviqi**

# 3-cü Fəsil:
# Hüquqi və prosessual islahatların təşviqi

## ƏSAS SUALLAR

- **İşgəncənin qarşısının alınması ilə bağlı hansı hüquqi islahatları MİHT-lər təşviq etməlidir?**
- **Həbs yerlərində şəffaflığı ilə bağlı hansı əsas təminatları MİHT-lər təşviq etməlidir?**
- **Həbslə bağlı hansı digər prosedurları MİHT-lər təşviq etməlidir?**

## MİHT-in İŞTİRAKININ HÜQUQİ ƏSASLARI

### Paris Prinsipləri[23]

***Səlahiyyətlər və vəzifələr***

**3. Milli təsisat, digər vəzifələrlə yanaşı, aşağıdakı vəzifələri yerinə yetirir:**

**(a) Müvafiq dövlət orqanının sorğusu ilə və ya yuxarı instansiyaya müraciət etmədən məsələyə baxmaq səlahiyyətinin həyata keçirilməsi yolu ilə, məşvərətçi əsaslarla, Hökumətə, Parlamentə və ya hər hansı başqa səlahiyyətli orqana insan hüquqlarının müdafiəsi və təşviqi ilə bağlı hər hansı məsələlər üzrə rəylər, tövsiyələr, təkliflər və məruzələrin təqdim edilməsi. Milli təsisat onları açıqlamaq qərarına gələ bilər. Bu rəylər, tövsiyələr, təkliflər və məruzələr, habelə milli təsisatın hər hansı müstəsna səlahiyyəti aşağıdakı sahəyə aiddir:**

**(i) İnsan hüquqlarının müdafiəsinin təmin olunmasına və gücləndirilməsinə yönəlmiş hər hansı qanunvericilik və inzibati müddəalar, habelə məhkəmə sisteminin təşkilinə aid müddəalar. Bununla əlaqədar olaraq, milli təsisat qüvvədə olan qanunvericilik və inzibati aktların müddəalarını öyrənir və həmin müddəaların insan hüquqlarına dair əsas prinsiplərinə uyğun olmasını təmin etmək üçün zəruri hesab etdiyi tövsiyələr verir. Zəruri hallarda o, yeni qanunvericilik aktlarının qəbul olunmasını, qüvvədə olan qanunvericiliyə dəyişikliklərin edilməsini, həmçinin inzibati tədbirlərin həyata keçirilməsini və ya dəyişdirilməsini tövsiyə edir**

**(b) Milli qanunvericiliyin, təlimatların və təcrübələrin və onların səmərəli surətdə həyata keçirilməsinin dövlətin tərəfdar çıxdığı sənədlərlə uyğunlaşdırılmasının təşviq və təmin edilməsi**

**(c) Yuxarıdakı sənədlərin ratifikasiya edilməsinin, yaxud onlara qoşulmasının, həmçinin səmərəli surətdə həyata keçirilməsinin həvəsləndirilməsi**

### ACJ-nin İşgəncəyə dair Arayışı

***Müvafiq beynəlxalq sənədlərin ratifikasiyası***

**MİHT-lər işgəncəyə dair bütün müvafiq müqavilələrin, o cümlədən "Mülki və siyasi hüquqları haqqında" Beynəlxalq Paktın, onun birinci Fakültativ Protokolunun, İşgəncə əleyhinə**

▸▸

[23] "İnsan hüquqlarının təşviqi və müdafiəsinə dair milli təsisatların statusuna aid" Prinsiplərin ("Paris Prinsipləri" adlandırılan) tam mətni CD-Diskin "Further Readings" bölməsində vardır.

**Konvensiyanın və Fakültativ Protokolun ratifikasiyasının vacibliyini vurğulamalıdır. Xüsusi olaraq, onlar şəxslərin müvafiq beynəlxalq orqanlara şikayət etmək hüququna malik olmasının vacibliyini və bununla da onların dövlətlərinin "Mülki və siyasi hüquqlar haqqında" Beynəlxalq Paktın birinci Fakültativ Protokoluna tərəfdar çıxmasının və İşgəncə əleyhinə Konvensiyanın 22-ci maddəsinə əsasən bəyanat verilməsinin vacibliyini vurğulamalıdırlar.**

***Beynəlxalq öhdəliklərin daxili qanunvericilikdə tətbiqi***

**MİHT-lər öz dövlətlərini dəvət etməlidirlər ki,**

- **daxili qanunvericilikdə işgəncənin müfəssəl anlayışı verilsin;**
- **işgəncə daxili qanunvericilikdə cinayət kimi müəyyən edilsin;**
- **beynəlxalq adət hüququ daxili qanunvericiliyin mənbəyi kimi müəyyən edilsin;**
- **"non-refoulement" prinsipi, o cümlədən şəxsin işgəncə, yaxud digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza ilə üzləşə biləcəyi ölkəyə qaytarılmasının qadağan olunması qanunvericilikdə əks etdirilsin;**
- **Dövlətin vətəndaşlarının və vətəndaşı olmayan şəxslərin ərazidən kənar törətdiyi əməllər üzərində yurisdiksiyanı müəyyən edən qanunlar qəbul edilsin.**

***Dindirmə standartları***

**ACJ-nin hazırladığı "Dindirməyə dair Minimal Standartlar" ("DMS") MİHT-lər tərəfindən təşviq edilməli və dindirmədə iştirak edən vəzifəli şəxslərin bu DMS-dən tam məlumatlı olması və onlardan səmərəli qaydada istifadə etməsinin təmin olunması istiqamətində iş aparılmalıdır.**

## GİRİŞ

Ölkənin qanunvericiliyində işgəncənin qarşısının alınması üzrə səmərəli strategiyanın təməli nəzərdə tutulur. Qanunvericiliyə dövlət tərəfindən ratifikasiya edilmiş beynəlxalq müqavilələr, habelə qüvvədə olan qanunlar daxildir.

MİHT-lərin müvafiq beynəlxalq insan hüquqları müqavilələrin ratifikasiyasının təşviqində vacib rolu vardır. Onların həmçinin işgəncənin qarşısının alınmasına yardım etmək üçün qanunvericiliyi nəzərdən keçirməyə, dəyişikliklərin edilməsini təklif etməyə və yeni qanunvericilik aktının qəbul olunmasını tövsiyə etməyə icazə verən güclü məşvərətçi mandatı vardır.

Bundan əlavə, MİHT-lər beynəlxalq normalara uyğun olan və səmərəli təminatlar nəzərdə tutulan həbslə bağlı prosedurları təbliğ edə bilərlər.

## 1. BEYNƏLXALQ MÜQAVİLƏLƏRİN RATİFİKASİYASININ TƏŞVİQİ

MİHT-lər öz ölkələri tərəfindən işgəncə ilə bağlı bütün əsas beynəlxalq müqavilələrin və xüsusilə aşağıdakıların ratifikasiya edilib-edilmədiyini nəzərdən keçirməlidirlər:

- İşgəncə əleyhinə Konvensiya (o cümlədən 21 və 22-ci maddələr) və Fakültativ Protokolu
- "Mülki və siyasi hüquqlar haqqında" Beynəlxalq Pakt və Fakültativ Protokolu

Müvafiq hallarda həmçinin regional müqavilələr nəzərdən keçirilməlidir (əlavə məlumat üçün bax 2-ci fəslə).

Həmin əsas müqavilələr dövlət tərəfindən ratifikasiya edilmədiyi təqdirdə, MİHT-lər ratifikasiyanın təşviqi üzrə strategiyanı hazırlayaraq həyata keçirə bilər. Buna Hökumətə müəyyən müqavilələrin ratifikasiyası barədə rəsmi tövsiyənin verilməsi, hökumət və parlament nümayəndələrinin fəal qaydada lobbiləşdirilməsi və məsələ ilə bağlı ictimai məlumatlanmanın təmin edilməsi daxil ola bilər.

***Ruandanın Milli İnsan Hüquqları Komissiyası** İşgəncə əleyhinə Konvensiyanın ratifikasiyası ilə bağlı Hökuməti fəal qaydada lobbiləşdirmişdir. 2008-ci il dekabrın 15-də Ruanda Konvensiyanın 146-cı iştirakçısı olmuşdur.*

## 2. HÜQUQİ İSLAHATLARIN TƏŞVİQİ

İşgəncə əleyhinə Konvensiyada işgəncənin qadağan edilməsinə töhfə verən bir sıra mühüm tədbirlər nəzərdə tutulur. Dövlət müqaviləni ratifikasiya etdikdə bu tədbirləri daxili qanunvericilikdə və təcrübədə tətbiq etməlidir.

Belə ölkələrdə MİHT-lər milli qanunvericiliyin İşgəncə əleyhinə Konvensiyada təsbit edilmiş öhdəliklərə uyğun olmasının qiymətləndirilməsində mühüm rol oynaya bilərlər. Belə olmadıqda, MİHT-lər zəruri hüquqi islahatların təşviqi üçün öz mandatlarından istifadə etməlidirlər.

Monist sistemi olan, yəni beynəlxalq öhdəliklər bilavasitə milli qanunvericiliyin tərkib hissəsini təşkil edən ölkələrdə MİHT-lər həmin öhdəliklərə təcrübədə riayət edilməsini qiymətləndirmək üçün vəziyyəti nəzarətdə saxlamalıdırlar.

### İşgəncənin cinayət kimi müəyyən edilməsi (4-cü maddə)

İşgəncə əleyhinə Konvensiyanın 1-ci maddəsində işgəncənin aydın tərifi verilir. Bu tərif nəticəsində işgəncə digər cinayətlərlə, o cümlədən xəsarətyetirmə, zorlama və ya adamöldürmə ilə qismən üst-üstə gələ bilsə də, onlardan.

İşgəncə tərifinin üç əsas elementi vardır:

- ciddi fiziki və ya psixiki ağrı və ya iztirab qəsdən yetirilir
- dövlətin nümayəndəsi tərəfindən, yaxud onun razılığı və ya razılaşması ilə törədilir
- xüsusi məqsəd, o cümlədən məlumatı əldə etmək, cəzalandırmaq və ya qorxutmaq üçün.

İşgəncə əleyhinə Konvensiyada tələb olunur ki, iştirakçı dövlətlər cinayət qanunvericiliyində işgəncəni cinayət kimi müəyyən etsinlər. İşgəncəyə qarşı Komitə tövsiyə edir ki, dövlətlər ən azı Konvensiyada nəzərdə tutulmuş tərifdən istifadə etsinlər.

MİHT-lər çalışmalıdırlar ki, Konvensiyanın 1-ci maddəsinə müvafiq olaraq işgəncə cinayəti ölkələrinin cinayət qanunvericiliyində əks etdirilsin.

Konvensiyada həmçinin tələb olunur ki, dövlətlər işgəncə cinayətinə görə əməlin, xüsusilə ağır xarakteri nəzərə alınmaqla cəzanı təmin etsinlər.

### İşgəncə nəticəsində əldə edilmiş sübutun qeyri-mümkünlüyü (15-ci maddə)

Cinayət qanunvericiliyində aydın surətdə bildirilməlidir ki, işgəncə ilə əldə edilmiş hər hansı sübut şəxs barəsində cinayət prosesində mümkün deyil. MİHT-lər bu qanuna təcrübədə riayət olunmasını təmin etməlidirlər.

### İşgəncə verənlər barəsində universal yurisdiksiya (5 – 9-cu maddələr)

MİHT-lər təmin etməlidirlər ki, işgəncə cinayətinin onun hüdudlarından kənar törədilməsindən və mümkün cinayətkarın vətəndaşlığından, yaşadığı ölkədən və ya ölkə ilə hər hansı əlaqələrin olmadığından asılı olmayaraq, işgəncədə şübhəli bilinən şəxsin təqib edilməsinə yol verən qanunvericilik aktı mövcud olsun. Dövlət cinayətə görə təqibi həyata keçirə bilmədikdə, həmin şəxsi belə cinayətə görə təqibi həyata keçirmək imkanında və iqtidarında olan dövlətə ekstradisiya etməlidir.

## "Non-refoulement" prinsipi (3-cü maddə)

MİHT-lər qanunvericiliyin, habelə müvafiq siyasət və təcrübələrin Konvensiyaya tərəfdar çıxmış dövlətlərin əsas öhdəliyi olan "non-refoulement" prinsipinin təmin edilməsi üçün kifayət olub-olmadığına nəzarət etməlidirlər.

***Namibiyanın Ombudsmanı**, Qanunun İslahatı və İnkişafı Komissiyasının sədri vəzifələrini müvəqqəti icra edən şəxs qismində Komissiyadan xahiş etmişdir ki, işgəncədən müdafiəni əsas prioritet kimi müəyyən etsin. Parlamentə göndərilmək üçün Kabinetin Qanunvericilik Komitəsinə Ombudsman tərəfindən təqdim olunacaq məruzənin və qanun layihəsinin hazırlanması məqsədilə 2009-cu ilin aprelində seminar keçirilmişdir.*

***Əfqanıstanın Müstəqil İnsan Hüquqları Komissiyası** 2007-ci ilin iyulunda Əfqanıstanın parlamenti tərəfindən qəbul edilmiş "Həbsxanalar və saxlama mərkəzləri haqqında" qanun layihəsinin hazırlanması üzrə Komitənin üzvü olmuşdur. Hal-hazırda Komissiya Həbsxanalar üzrə Ali Şuranın üzvü kimi çıxış edir və vətəndaş cəmiyyətinin nümayəndələrini Şuranın işində iştirak etməyə müvəffəqiyyətlə dəvət etmişdir.*

# 3. HƏBSLƏ BAĞLI PROSEDURLARIN İSLAHATI

Yuxarıda qeyd olunan müddəalar nəzərdə tutulan qanunvericiliyin müəyyən edilməsi işgəncə və digər formada pis rəftar əməllərinin qadağan edilməsi və qarşısının alınmasının mühüm komponentini təşkil edir. Lakin qanunvericiliyin təcrübədə səmərəli surətdə tətbiq olunmasını təmin etmək üçün həmçinin təfərrüatlı və konkret prosedurlar tələb olunur. Hətta bəzi ən mühüm prosedurların qanunun özündə nəzərdə tutulması məqsədəuyğun olardı.

İşgəncənin demək olar ki, həmişə məxfilikdə baş verməsinə görə, həbs yerlərində daha böyük şəffaflığın təşviqi – işgəncənin qarşısının alınması istiqamətində mühüm addımdır, çünki bunun nəticəsində işgəncənin baş verməsi üçün bir çox imkanlar aradan qaldırılır. Bundan əlavə, vacib təminatları nəzərdə tuta biləcək və azadlıqdan məhrum edilmiş şəxslərin pis rəftara məruz qalması riskini azalda biləcək bir çox digər prosedurlar mövcuddur.

MİHT-lər daha böyük şəffaflıq və praktiki təminatlar nəzərdə tutulan həbslə bağlı prosedurların qəbul olunmasını fəal şəkildə təşviq etməli və dəstəkləməlidirlər.

## 3.1. Şəffaflığa töhfə verən həbslə bağlı prosedurlar

İşgəncəyə qarşı Komitə, İnsan Hüquqları Komitəsi və regional mexanizmlər həbs yerlərində işgəncə və pis rəftar riskinin azaltması üçün prosessual təminatların qəbul olunmasını tövsiyə edirlər.[24]

### Qeyri-qanuni saxlanma yerlərinin yolverilməzliyi

Azadlıqdan məhrum edilmiş şəxslər qeyri-qanuni saxlanma yerlərində saxlanılmamalıdırlar. Qeyri-qanuni həbs yerlərində prosedur tətbiq olunmur və qeydiyyat aparılmır, bununla da həbs edilmiş şəxsin institusional müdafiəsi təmin olunmur. Azadlıqdan məhrum edilmiş şəxslərin qeyri-qanuni həbs yerlərində saxlanılması cinayət hesab edilməlidir.

### Yazışma və görüşlər qadağan olunmaqla həbsin yolverilməzliyi

Yazışma və görüşlər qadağan olunmaqla həbsdə saxlama, yəni şəxsin təcrid olunması və xarici dünya ilə əlaqəyə malik olmaması, xüsusilə belə vəziyyət uzandıqda – işgəncə üçün şərait yaradan mühitdir. Azadlıqdan məhrum edilmiş şəxslərə vəkilləri, ailə üzvləri və digərləri ilə görüşməyə icazə

24 Bax İşgəncəyə qarşı Komitənin "iştirakçı dövlətlər tərəfindən 2-ci maddənin tətbiqinə dair" 2 saylı ümumi şərhi, xüsusilə 13-cü paraqraf: "müəyyən əsas təminatlar azadlıqdan məhrum edilmiş bütün şəxslərə münasibətdə tətbiq olunur (...). Belə təminatlara, digərləri arasında, həbs edilmiş şəxslərin rəsmi qeydiyyatının aparılması, həbs edilmiş şəxslərin öz hüquqları haqqında məlumat almaq hüququ, təxirə salınmadan müstəqil hüquqi yardım, müstəqil tibbi yardım almaq və qohumlarla əlaqə saxlamaq hüququ daxildir (…)". Bax həmçinin İnsan Hüquqları Komitəsinin işgəncənin və qəddar rəftar və cəzaların qadağan edilməsi (7-ci maddə) ilə bağlı 20 saylı ümumi şərhinə.

verilməlidir. Hər hansı istisna halları qanunla müəyyən edilməli və məhkəmə nəzarəti altında məhdud müddət üçün nəzərdə tutulmalıdır.[25]

## Üçüncü tərəfə məlumat vermək hüququ

Həbs edilmiş şəxslərə öz ailə üzvləri, dostları, vəkilləri, konsulluğun nümayəndələri və ya öz seçimi ilə hər hansı şəxs ilə əlaqə saxlamağa və həbs, eləcə də saxlanma yeri barədə məlumat verməyə icazə verilməsi xüsusi əhəmiyyət kəsb edir.

## Vəkilin xidmətindən istifadə etmək imkanı

Şəxsin həbs edilməsindən dərhal sonra, xüsusilə dindirmə zamanı vəkilin xidmətindən istifadə etmək imkanının təmin edilməsi işgəncə riskini əhəmiyyətli dərəcədə azalda bilər. Bundan əlavə, vəkil öz müştərisinin həbsinin qanuniliyi ilə bağlı məsləhət verə, habelə verilə biləcək hər hansı şikayətlə bağlı tədbir görə bilər. Vəkilin xidmətindən istifadə etmək imkanı vəkillə əlaqə saxlamaq və görüşmək hüququnu və prinsip etibarilə, dindirmədə vəkilin iştirak etmək hüququnu əhatə etməlidir.

## Həkimin xidmətindən istifadə etmək imkanı

Müstəqil həkim, mümkün olduqda isə şəxsin öz seçdiyi həkim tərəfindən müayinə olunmaq hüququ həmçinin həbs yerlərində məxfilik mədəniyyətinin yayılmasının azaldılmasına kömək edir. Tibbi müayinə nəticəsində şəxsin həbs edildiyi zaman onun fiziki vəziyyəti müəyyən oluna bilər. Bu, işgəncəyə qarşı saxlayıcı amil ola, habelə işgəncə baş verdiyi halda onun müəyyən olunmasına kömək edə bilər. Tibbi müayinə nəticəsində həmçinin şəxsin həbsdə ağırlaşa biləcək hər hansı xəstəliklər müəyyən edilə bilər.[26] Tibbi müayinənin nəticələri müdiriyyət tərəfindən rəsmi qaydada qeyd edilməli və şəxsə, eləcə də onun vəkilinə təqdim edilməlidir.

26



Şəkil: APF / Michael Power

[25] İnsan Hüquqları Komitəsinin 20 saylı ümumi şərhində bildirilir ki, "Yazışma və görüşlər qadağan olunmaqla həbsdə saxlamaya qarşı müddəalar nəzərdə tutulmalıdır". (11-ci paraqraf). Bax, həmçinin *Polay Campos* v. *Peru*, İnsan Hüquqları Komitəsi, Kommunikasiya №577/1994, 1997-ci il noyabrın 8-də qəbul edilmiş rəy.

[26] Bax *Mr. C.* v. *Australia*, İnsan Hüquqları Komitəsi, Kommunikasiya №900/1999, 2002-ci il oktyabrın 28-də qəbul edilmiş rəy; və *Albert Wilson* v. *Philippines*, İnsan Hüquqları Komitəsi, Kommunikasiya №868/1999, 2003-cü il oktyabrın 30-da qəbul edilmiş rəy.

### Hakim qarşısında durmaq

Həbs edilmiş hər bir şəxs təxirə salınmadan hakim qarşısına gətirilməlidir. Hakim şəxsin həbsinin və saxlanılmasının qanuniliyini təmin etməlidir. Hakim həmçinin şəxsin qaldıra biləcəyi hər hansı şikayətə baxmaq imkanında olacaqdır. Hətta rəsmi şikayət olmasa da belə, açıq görünən xəsarətlər, eləcə də işgəncə və ya pis rəftar baş verməsinin başqa göstəriciləri olduqda hakim *ex officio* tədbir görə bilər.

## 3.2. Həbslə bağlı digər prosedurlar

Həbslə bağlı aşağıdakı prosedurlarda xüsusilə polis əməkdaşları tərəfindən azadlıqdan məhrum edilməsinə diqqət yetirilir. Onlarda İşgəncəyə qarşı Avropa komitəsi kimi beynəlxalq və regional mexanizmlərin tövsiyə etdiyi ən yaxşı təcrübələr müəyyən olunur.

2006-cı ildə Milli İnsan Hüquqları Təsisatlarının Asiya – Sakit okean Bölgəsinin Forumu tərəfindən onun Hüquqşünasların Məşvərətçi Şurasının hazırladığı dindirməyə dair təfərrüatlı prosessual standartlar – “Dindirməyə dair Minimal Standartlar” qəbul edilmişdir.

### Qeydiyyat

Rəsmi qeydiyyat jurnallarının aparılması ilə həbs edilmiş şəxslər üçün mühüm təminat yaradılır. Bunlar hər bir şəxsin həbs müddətində yerinin qeydiyyatının aparılması, habelə həbslə bağlı müvafiq prosedurlara əməl edilməsinin təmin olunması üçün vacib alətdir. Bütün həbs yerlərində və polis bölmələrində jurnallar ciddi qaydada aparılmalıdır. Bütün maraqlı tərəflər jurnallarla sərbəst tanış olmaq imkanında olmalıdırlar.[27] Jurnalda boşluq və ziddiyyət monitorinq qruplarına potensial işgəncə və ya pis rəftar barədə siqnal verə bilər.

### Dindirmə və həbsdə saxlamanın ayrılması

Dindirməyə və həbsdə saxlamaya müxtəlif orqanlar məsuliyyət daşımalıdırlar. Müxtəlif orqanların müxtəlif prioritetləri, müxtəlif təcrübə sahələri və müxtəlif tabeçilik sistemi vardır. Müxtəlif orqanların iştirakı həbs edilmiş şəxsləri onların saxlanma şəraitinin dindirmə zamanı davranışlarına təsir göstərməsi mümkünlüyündən qoruya bilər. Bundan əlavə, hər orqan başqa orqanın işini yoxlaya bilər.

### Dindirmə zamanı davranış məcəlləsi

Polis orqanlarında dindirmənin aparılmasına dair təfərrüatlı və spesifik standartları müəyyən edən davranış məcəlləsi olmalıdır. Məcəllədə dindirmənin mümkün müddəti, istirahət vaxtı, dindirmədə iştirak edən şəxslərin yeri və şəxsiyyəti, habelə şəxslərin narkotik maddələrin təsiri altında dindirilməsi kimi məsələlər əks etdirilməlidir. Bu məcəllənin hazırlanması prosesinin özü polis əməkdaşlarını onların işi üçün münasib və səmərəli praktikaları nəzərdən keçirməyə həvəsləndirdikdə faydalıdır. Davranış məcəlləsi açıq olmalı və azadlıqdan məhrum edilmiş şəxslər üçün mümkün olmalıdır.

### Dindirmənin səs və video yazması

Səs və videoyazma nəinki dindirmə prosesinin şəffaflığına töhfə verir, hətta polis üçün əhəmiyyətli üstünlüklər verə bilər. Səs və videoyazma müəyyən olunmuş davranış məcəlləsinə dindirmə zamanı polis tərəfindən əməl olunmasının monitorinqinə və təmin edilməsinə kömək edir.

[27] İnsan Hüquqları Komitəsinin 20 saylı ümumi şərhində bildirilir ki, “həbs edilmiş şəxslərin səmərəli müdafiəsini təmin etmək üçün həbs edilmiş şəxslərin rəsmi olaraq həbs yeri sayılan yerlərdə saxlanılması, habelə onların adlarının və həbs yerinin, eləcə də onların həbsinə məsul şəxslərin adlarının müvafiq şəxslər, o cümlədən qohumlar və dostlar üçün mümkün olan qeydiyyat jurnallarında əks etdirilməsi təmin edilməlidir” (11-ci paraqraf).

## Müstəqil yoxlama mexanizmləri

Bütün həbs yerlərinə müstəqil monitorinq orqanları tərəfindən müntəzəm və qabaqcadan elan edilməyən başçəkmələrlə məxfilik mədəniyyətinin yayılmasının qarşısının alınmasına töhfə verilir və azadlıqdan məhrum edilmiş şəxslər üçün mühüm təminatlar verilir.

### BAX

**İşgəncənin və pis rəftarın qarşısının alınmasına yönəldilmiş qanunların və siyasətlərin islahatının MİHT-lər tərəfindən təşviq edilməsi yolları üçün "İşgəncənin qarşısının alınması" adlı Diskə müraciət et.**

**'Publisistik materiallar' adlı başlığa kliklə və sonra 'Bənd 3 – MİHT-lər: Qanunların və siyasətin dəyişdirilməsi' adlı başlığı seç.**

### ƏSAS MƏSLƏLƏR: 3-CÜ FƏSİL

- **MİHT-lər müvafiq beynəlxalq insan hüquqları müqavilələrinin, o cümlədən İşgəncə əleyhinə Konvensiyanın və onun Əlavə protokolunun ratifikasiyasını təşviq edə bilərlər.**
- **MİHT-lər hüquqi islahatları, xüsusilə işgəncənin qanunvericilikdə cinayət sayılmasını təşviq edə bilərlər.**
- **MİHT-lər həbslə bağlı prosedurların islahatını təşviq edə bilərlər.**

### ƏLAVƏ MATERİALLAR

***Criminalisation of Torture: State Obligations under the United Nations Convention against Torture and Other Cruel, Inhuman or Degrading Treatment or Punishment***; Sir Nigel Rodley and Matt Pollard; E.H.R.L.R. Issue 2, Sweet and Maxwell; 2006

### DİSKDƏ

Committee against Torture, general comment No. 2, Implementation of article 2 by States Parties

Human Rights Committee, general comment No. 20: replaces general comment 7 concerning prohibition of torture and cruel treatment or punishment (art. 7)

Advisory Council of Jurists Reference on Torture (includes Minimum Interrogation Standards); Asia Pacific Forum of National Human Rights Institutions; 2005

***Bringing the International Prohibition of Torture Home: National Implementation Guide for the UN Convention against Torture and Other Cruel, Inhuman or Degrading Treatment or Punishment***; The Redress Trust; 2006

***Torture in International Law: A Guide to Jurisprudence***; Association for the Prevention of Torture and the Center for Justice and International Law; 2008

***The Right of Access to Lawyers for Persons Deprived of Liberty***; Legal Briefing Series, Association for the Prevention of Torture; March 2010



# II Bölmə

# Qanunvericilik müddəalarının həyata keçirilməsinə yardım





**4-cü Fəsil:** İşgəncə barədə şikayətlərin araşdırılması

**5-ci Fəsil:** Müsahibə

**6-cı Fəsil:** Vəzifəli şəxslər üçün təlim

# 4-cü Fəsil:
# İşgəncə barədə şikayətlərin araşdırılması

**ƏSAS SUALLAR**

- **Zərərçəkmiş şəxsin ifadələrinin doğruluğunu qiymətləndirməyə hansı məlumatlar kömək edir?**
- **İşgəncə barədə şikayətlərin araşdırılması zamanı başqa hansı məlumatlar toplanmalıdır?**
- **İşgəncə barədə şikayətlərə dair məlumatlar necə qeyd edilməlidir?**

**MİHT-in İŞTİRAKININ HÜQUQİ ƏSASLARI**

**Paris Prinsipləri**

***İş metodları***

**Milli təsisatlar öz fəaliyyət çərçivəsində:**

**a) Öz səlahiyyətlərinə aid hər hansı halların qiymətləndirilməsi üçün zəruri olan hər hansı şəxsi dinləyir və hər hansı məlumatı və sənədləri əldə edir**

***Kvazimәhkәmә sәlahiyyәtlәrinә malik komissiyaların statusuna dair əlavə prinsiplər***

**Milli təsisata fərdi hallarla bağlı şikayətləri dinləmək və onlara baxmaq səlahiyyəti verilə bilər. Şikayətlər şəxslər, onların nümayəndələri, üçüncü tərəflər, qeyri-hökumət təşkilatları, həmkarlar ittifaqları və ya hər hansı digər nümayəndəlik təşkilatı tərəfindən verilə bilər.**

## GİRİŞ

İşgəncə barədə şikayətlərin araşdırılması və sənədləşdirilməsi işgəncənin qarşısının alınmasına dair hər bir strategiya üçün xüsusi əhəmiyyət kəsb edir. MİHT-lər zərərçəkmiş şəxslərdən və ya onların qohumlarından daxil olmuş şikayətləri araşdırmalı və sənədləşdirməli, habelə müəyyən həbs yerlərində işgəncə və ya pis rəftarın baş verə biləcəyinə şübhə etdikdə öz təşəbbüsü ilə araşdırma aparmalıdırlar.

Qeyd edilməlidir ki, işgəncənin qurbanlarına ciddi fiziki və psixoloji ziyan vurula bilər. Bunun nəticəsində, onlar öz vəziyyətləri barədə danışmağa istəməyə bilərlər.

## 1. MƏLUMATIN TOPLANMASI

Şəxs işgəncəyə məruz qaldığından şikayət etdikdə həmin şikayəti dəstəkləyə biləcək hər hansı məlumatın toplanılması vacibdir.

Birinci addım – zərərçəkmiş şəxsin mümkün qədər tez müddətdə dindirilməsidir (əlavə məlumat üçün bax 5-ci fəslə). Müsahibədən sonra, toplanmış məlumatın yoxlanılması və şikayətlərin doğruluğunun qiymətləndirilməsi zəruridir.[28]

Belə qiymətləndirmədə aşağıdakıların yoxlanılması vacibdir:

- ifadənin inandırıcı və məntiq baxımından ardıcıl olması
- ifadənin digər müstəqil mənbələrin məlumatı ilə uyğun olması
- ifadənin məlum işgəncə və pis rəftar nümunələrinə uyğun olması
- zərərçəkmiş şəxsin ifadələrinin digər ifadələrlə təsdiq olması
- yerə baxış zamanı digər maddi sübutların mövcudluğu
- işgəncənin tibbi sübutunun mövcud olması
- işgəncə nəticəsində bədən xəsarətlərinin mövcudluğu (lakin bədən xəsarətlərinin olmaması heç də işgəncənin baş vermədiyi demək deyil)
- işgəncənin psixoloji göstəricilərinin mövcudluğu.

## İfadənin inandırıcı və məntiq baxımından ardıcıl olması

İşgəncə barədə bəzi şikayətlərdə zərərçəkmiş şəxsin ifadələrindən başqa heç bir sübut olmur. Zərərçəkmiş şəxsin ifadəsi doğru kimi səslənsə, başqa sözlərlə, ifadə ardıcıl olaraq ziddiyyətli deyilsə, bu, araşdırmanın ilk mühüm addımını təşkil edəcəkdir. Mümkün olduqda, bu ifadə digər məlumatlarla tutuşdurulmalıdır. Buna görə də, mümkün qədər çox təfərrüatlı məlumatın toplanması zəruridir.

Nəzərə alınmalıdır ki, bir çox zərərçəkmiş şəxslərin işgəncə nəticəsində travma aldığına görə, onlardan ifadə alınması çətin olur. Onlar, barələrində törədilmiş əməllərdən utandığından, qeyri-dəqiq məlumatı verə, yaxud digər səbəblərdən, ümumiyyətlə, məlumatı verməyə bilərlər. Onlara verilmiş iztirab da məlumatın verilməsindən yayınmağın səbəbi ola bilər. Cinsi təcavüzün qurbanları xüsusilə utanma hisslərini keçirdə və hadisə barədə danışmaq imkanında olmaya bilər.

## İfadənin digər müstəqil mənbələrinin məlumatı ilə uyğun olması

### İfadənin məlum işgəncə və pis rəftar nümunələrinə uyğun olması

İşgəncə barədə müəyyən şikayətin təfərrüatlarının yoxlanılması çətin olsa da, adətən onun artıq məlum olan məlumatla tutuşdurulması mümkündür. Bu məlumat işgəncə törədə biləcək orqanlar, işgəncənin baş verə biləcəyi yerlər, habelə keçmişdə baş vermiş işgəncə halları ilə bağlı ola bilər.

### Zərərçəkmiş şəxsin ifadələrinin digər ifadələrlə təsdiq olunması

İşgəncə, mahiyyət etibarilə, demək olar ki, həmişə gizli törədilir. Bunun nəticəsində, digər insan hüquqları pozuntularının araşdırılması zamanı mümkün olan şahidlərin müəyyən edilməsi və dindirilməsi çətin olar bilər.

Eyni zamanda, zərərçəkmiş şəxsin ifadələrini təsdiq etmək imkanında olan potensial şahidlər, o cümlədən aşağıdakılar mövcud ola bilər:

- zərərçəkmiş şəxsin həbsə alınmasını müşahidə etmiş şəxslər. Onlar zərərçəkmiş şəxsin kim tərəfindən və nə vaxt aparılması, şəxslə rəftar və bu zaman onun fiziki vəziyyəti barədə məlumat verə bilərlər.

[28] işgəncənin qurbanlarından tam dəqiqlik nadir hallarda gözlənilir. bax *Kisoki* v. *Sweden*, İşgəncəyə qarşı Komitə, Kommunikasiya №41/1996, 1996-cı il mayın 8-də qəbul edilmiş rəy.

- zərərçəkmiş şəxslə saxlanılmış şəxslər. Onlar şəxsin dindirməyə kim tərəfindən aparılması, onun nə vaxt dindirilməsi, dindirmənin müddəti, dindirmədən əvvəl və sonra şəxsin fiziki vəziyyəti, şəxsin o zaman nə danışdığı barədə məlumat verə bilərlər.
- işgəncəni müşahidə edə bilmiş, habelə ona etiraz etmiş həbsxana və ya hüquq-mühafizə orqanlarının əməkdaşları. Onlar məlumatı konfidensial qaydada vermək ixtiyarında ola bilərlər.

## Həbs yerinə baxış zamanı əldə edilmiş məlumat

Həbs yerlərinə daxil ola bilən MİHT-lər işgəncə barədə şikayətlərə cavab olaraq həbs yerinə baş çəkdikdə əlavə sübutları toplaya bilərlər. Belə başçəkmə zamanı MİHT nümayəndələri binanın və otaqların təsvirini tutuşdura, qeydiyyat jurnallarını yoxlaya və digər məlumatları, o cümlədən şəxsin daxil olmasının, kameradan çıxarılmasının tarixi, vaxtı və növbədə olan əməkdaşların adlarını yoxlaya bilərlər.



APF / Michael Power

## İşgəncənin tibbi sübutunun mövcud olması

İşgəncə barədə şikayətləri təsdiq edə biləcək mümkün tibbi sübutların dörd növü mövcuddur. Onlara aşağıdakılar daxildir:

- işgəncə şikayət edilən vaxtda, yaxud bundan bir az sonra zərərçəkmiş şəxsin tibbi müayinəsi
- şikayətin verilməsi zamanı zərərçəkmiş şəxsin tibbi müayinəsi
- zərərçəkmiş şəxsin psixoloji müayinəsi
- meyitin yarılması (autopsiya).